RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 133 (8449) ŞƏNBƏ, 11 iyul 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Qlobal liderlik missiyası

## İlham Əliyevin pandemiya ilə mübarizədə beynəlxalq həmrəyliyə xidmət edən təşəbbüslərinin uğurla reallaşması həm də Azərbaycanın yürütdüyü müstəqil siyasətin göstəricisidir

**Dünyanı başına götürən koronavirus pandemiyası Azərbaycanla bağlı bir sıra gerçəkləri yenidən gündəmə gətirdi. Bu gerçəklərdən biri odur ki, respublikamız xarici dövlət və təşkilatlardan humanitar və hansısa formada maddi dəstək olmadan qlobal böhrana qarşı mübarizə aparan dövlətlərdən biridir. Məlum olduğu kimi, 150-dən artıq dövlət Ümumdünya Səhiyyə Təşkilatına müraciət edib. Respublikamız isə hətta 30-dan artıq dövlətə humanitar yardım göstərib.**

### Prezidentin təşəbbüsü ilə reallaşan iki zirvə görüşü

Qlobal əməkdaşlığa güclü ehtiyac duyulduğu bir şəraitdə dövlətlər, eləcə də bir sıra beynəlxalq və regional təşkilatlar adekvat reaksiya göstərə, beynəlxalq həmrəyliyin gücləndirilməsi ilə bağlı zəruri addımlar ata bilmədilər. Pandemiya meydana çıxandan sonra problemə adekvat münasibət ortaya qoymalı, bütün dünyanı bu xəstəliyə qarşı səfərbər etməli olan beynəlxalq təşkilatlar susqunluq nümayiş etdirdilər. Məsələn, BMT və onun əsas qurumları olan Baş Assambleya və Təhlükəsizlik Şurası COVID-19-la mübarizədə dövlətləri həmrəyliyə dəvət edən bir iş görmədi.

BMT TŞ-nin xüsusi iclaslarının çağırılması təşəbbüsü fikir ayrılığına görə baş tutmadı. BMT Baş Assambleyası çərçivəsində bir neçə qətnamə layihəsi irəli sürülsə də, onların əksəriyyəti uğurla nəticələnmədi və yalnız deklarativ mətnlərlə yekunlaşdı. Dünyanın böyük dövlətləri əsasən daxildə koronavirus probleminin həllinə kökləndilər.

Belə bir şəraitdə məhz Prezident İlham Əliyev qlobal liderlik missiyasını öz üzərinə götürdü. Dövlət başçısı bu vəziyyətin heç kimə xeyir gətirməyəcəyini və koronavirusla mübarizədə qlobal həmrəyliyin vacib olduğunu nəzərə alaraq, dünyanın ayrı-ayrı qitələrindən müxtəlif siyasi və ideoloji quruluşlara malik ölkələri bir araya gətirməyə nail oldu. İlham Əliyevin təşəbbüsü ilə Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşünün keçirilməsi koronavirusla mübarizədə ilk beynəlxalq tədbir kimi tarixə düşdü. Azərbaycan Prezidenti bu həssas zamanda böyük siyasi qətiyyət nümayiş etdirərək Türk Şurasının sədri kimi bu qurumun səmərəli fəaliyyətinə nail oldu, eyni zamanda, qardaş və tərəfdaş ölkələrlə həmrəylik nümayiş etdirdi.

### Yüksək nüfuzun təsdiqi

Türk Şurasının ardınca İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında Zirvə görüşü keçirildi. Üzvlərinin sayına görə dünyanın ikinci ən böyük təşkilatının belə bir Zirvə görüşünün keçirilməsi, bu tədbirə BMT Baş Assambleyası sədrinin, Ümumdünya Səhiyyə Təşkilatının Baş direktorunun, Afrika İttifaqı Komissiyası sədrinin qatılması, BMT Baş katibi Antonio Quterreşin və Avropa İttifaqının ali nümayəndəsi və Avropa Komissiyasının vitse-prezidenti Cozef Borelin videomüraciət ünvanlaması, habelə Zirvə görüşünü təşkil etdiyinə və pandemiya ilə mübarizəyə ciddi əməli töhfələr verdiyinə görə Azərbaycan Prezidentinin fəaliyyətinin təqdir olunması, dövlət başçısına çoxsaylı təşəkkürlər bildirilməsi ölkəmizin və onun liderinin beynəlxalq arenada yüksək nüfuzunun əyani göstəriciləri kimi tarixə düşdü.

Beləliklə, Prezident İlham Əliyev nümunəvi addım ataraq pandemiyaya yalnız qlobal əməkdaşlıq və həmrəylik sayəsində qalib gəlməyin mümkünlüyünü dünyaya nümayiş etdirdi. Bütün bunlar göstərdi ki, Azərbaycan öz təşəbbüsləri və praktiki addımları ilə dünyada həmrəyliyin möhkəmlənməsinə, indiki mürəkkəb şəraitdə dövlətlər və xalqlar arasında təmasların yüksəlməsinə, qlobal pandemiya ilə mübarizədə bütün səylərin səfərbər olunmasına ciddi töhfələr verir.

Qeyd olunanlar həm də Azərbaycanın müstəqil siyasət yürüdən bir dövlət olduğunu bütün dünyaya sübut edir. Belə ki, respublikamızın pandemiya ilə mübarizədə beynəlxalq həmrəyliyə töhfə verməsi həm də dövlətimizin yürütdüyü müstəqil siyasətin təcəssümüdür. BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi ilə bağlı Azərbaycanın təşəbbüsünün dünya miqyasında yüksək qiymət alması və 130-dan çox ölkə tərəfindən dəstəklənməsi bu reallığı təsdiqləyən növbəti siyasi hadisə oldu.

Ardı 3-cü səh.

◆ Milli maraqlar naminə əməkdaşlıq

## Siyasi plüralizm və yeni siyasi konfiqurasiya

**Azərbaycanda siyasi islahatlar dərinləşdikcə siyasi plüralizmin daha da şaxələnməsi, siyasi hüquq və azadlıqların durmadan genişlənməsi, çoxpartiyalı siyasi sistemin yeni konfiqurasiyasının formalaşması prosesi daha intensiv getməyə başlayıb.**

Bir sıra yeni partiyaların dövlət qeydiyyatına alınması, siyasi partiyaların liderləri ilə Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilı əlaqələr şöbəsində mütəmadi olaraq keçirilən görüşlər dediklərimizə sübutdur. Bir sıra partiya liderlərinin və qeyri-hökumət təşkilatı rəhbərlərinin müalicəsinin dövlətin və Heydər Əliyev Fondunun öz üzərinə götürməsi Prezidentin və Birinci vitse-prezidentin yüksək humanizmindən, siyasi mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlara qayğısından xəbər verir.

Son parlament seçkiləri və orada bir çox partiyaların təmsil olunması dövlət quruculuğu prosesində çoxpartiyalı siyasi sistemin təmsilçiliyinə geniş yer verildiyinə dəlalət edir. Həmin partiyaların qanunvericilik orqanında uğurlu fəaliyyətləri ölkəmizdə çoxpartiyalı parlament sisteminin bərqərar olduğunu əyani surətdə nümayiş etdirir.

Ardı 3-cü səh.



## İnsan amilini yüksək tutan siyasət

Azərbaycan dövlətinin koronavirus pandemiyasının yayıldığı ilk günlərdən onunla mübarizə istiqamətində atdığı çox mühüm addımlar sırasında modul tipli xəstəxanaların yaradılması böyük əhəmiyyət daşıyır.

Prezident İlham Əliyevin müvafiq tapşırığına əsasən, ölkə ərazisində 10 modul tipli xəstəxana kompleksinin quraşdırılmasına başlanılıb ki, onlardan da bir neçəsinin artıq açılışı olub. Ümumilikdə, yaradılacaq modul tipli xəstəxana kompleksləri ölkənin səhiyyə sisteminə əlavə 2000 çarpayılıq ehtiyat yaradır.

İyulun 6-da Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva Bakının Xətai rayonunda Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli hospitalının açılışında iştirak ediblər.

Azərbaycan Televiziyasına, İctimai Televiziyaya və "Xəzər" TV-yə müsahibə verən dövlət başçısı ölkəmizdə və dünyada koronavirusun özü ilə gətirdiyi iqtisadi-siyasi və humanitar böhrandan xilas yolları haqqında geniş bəhs etdi.

Azərbaycan Prezidenti bildirdi ki, bu ərazidə təqribən bir ay-ay yarım ərzində yeni xəstəxana inşa ediləcək və o da modul tipli olacaq. Orada çarpayıların sayının 1300-ə qədər olması nəzərdə tutulur. Təqribən iki ay ərzində iki mindən çox xəstə qəbul ediləcək. Bununla da xəstəliklə mübarizədə əlavə imkanlar yaranacaq.

Ardı 4-cü səh.

## Ermənistanda işsizlik sosial problemləri artırır

### İşğalçı ölkədə vəziyyət fəlakət həddinə çatır

**Koronavirus pandemiyasının genişlənməsi ilə Ermənistanda sosial-iqtisadi durum daha da pisləşir. Xüsusən baş nazir Nikol Paşinyanın hakimiyyəti zəbt etməsindən sonra vəziyyət daha da ağırlaşıb. Asiya İnkişaf Bankı Ermənistandakı yoxsulluq səviyyəsini ən geridə qalmış ölkələrlə müqayisə edir. Beynəlxalq Valyuta Fondu isə bu ölkənin dövlət borcunun artacağını proqnozlaşdırır.**

Ölkədə işsizlik səviyyəsi də kritik həddə yaxınlaşır. Ermənistanın keçmiş baş naziri Qrant Baqratyan da vəziyyətin acınacaqlı olduğunu qeyd edir. O, Paşinyanın sosial şəbəkədə yazdığı qeydə istehza ilə toxunub. Paşinyan öz "Facebook" səhifəsində yazmışdır: "Mayda apreldə bağlanmış 71 min 471 iş yerindən 50 min 94-ü bərpa olunub. Bərpa prosesi davam edir".

Baqratyan bunları absurd adlandırır: "Adam nə deyir? Apreldə 71,4 min iş yeri bağlanmışdı, böyük hissəsini artıq açmışıq, görünür, indi tezliklə ya... Nikol Paşinyan nə biləydi ki, statistika xidməti 2020-ci ilin yanvar-apreli üçün 6,1 faiz işsizlik enişini (dünya rekordudur) qeydə alıb. Bax belə işləyirlər. Paşinyan milləti qıraraq koronavirusa qarşı belə mübarizə aparır".

Baqratyan bildirir ki, Paşinyan iş yerləri ilə bağlı bir sıra göstəriciləri, yumşaq desək, reallıqdan uzaq olan məlumatları açıqlayıb.

Ardı 6-cı səh.



## Ölkədəki epidemioloji vəziyyətə uyğun addımlar atılır

### Koronavirusun yayılma arealını azaldan səmərəli tədbirlərdən biri də karantin rejiminin tətbiqidir

COVID-19 pandemiyası ilə bağlı dünyada yaşanan böhran davam edir. Yeni növ koronavirusun hələ Yer üzərində nə qədər qalacağı, ondan qurtuluşun mümkün olub-olmayacağı barədəki suallar hələ də açıq qalmaqdadır. Bunu nla bağlı mütəxəssis açıqlamaları təəssüf ki, ürəkaçan deyil.

ABŞ-ın baş infeksionisti, koronavirusla mübarizə üzrə işçi qrupunun baş eksperti doktor Entoni Fauçi bildirib ki, dünya hələ yeni koronavirus pandemiyasının ilkin mərhələsindədir: "Biz Braziliya və Cənubi Afrika Respublikasında və indi də Asiyada koronavirusa kütləvi yoluxma hallarını müşahidə edirik. Biz çox güman ki, zəifləmədən öncə güclənəcək qlobal pandemiyanın hələ başlanğıcındayıq".

Onun sözlərinə görə, dünya ölkələri pandemiyanın qarşısını almaq üçün birlikdə koordinasiyalı tədbirlər görməsə, virus daha bir neçə ay aktiv olaraq yayılacaq.

### Qlobal böhranla mübarizə davam edir

Azərbaycanda virusla mübarizə qətiyyətlə davam etdirilir.

Ardı 4-cü səh.

# Monqolustanın Prezidenti zati-aliləri cənab Xaltmaaqiyn Battulqaya

Hörmətli cənab Prezident.

Monqolustanın milli bayramı münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, xoş ənənələrə əsaslanan Azərbaycan-Monqolustan münasibətləri həm ikitərəfli, həm də beynəlxalq müstəvidə bundan sonra da uğurla davam edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə müvəffəqiyyətlər, dost Monqolustan xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 iyul 2020-ci il*

# "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq, "Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında", "Ekoloji təmiz kənd təsərrüfatı haqqında", "Arıçılıq haqqında", "Reklam haqqında" və "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1663-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 8; 2001, № 12, maddə 736; 2003, № 1, maddə 7; 2004, № 1, maddə 6; 2007, № 6, maddə 560; 2009, № 2, maddələr 49, 55; 2011, № 4, maddə 257; 2013, № 11, maddə 1290; 2014, № 11, maddə 1365; 2015, № 11, maddə 1252; 2017, № 5, maddələr 718, 747; 2018, № 4, maddə 642, № 12 (I kitab), maddə 2492; 2019, № 6, maddələr 993, 995, № 8, maddə 1383; Azərbaycan Respublikasının 2020-ci il 1 may tarixli 71-VIQD nömrəli Qanunu) 11-ci maddəsinin üçüncü hissəsinin üçüncü cümləsi çıxarılsın.

**Maddə 2.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1, maddələr 4, 6, 15, 18, 23, 44, № 3, maddələr 374, 389, № 4, maddələr 579, 581, 587, 595, № 5, maddələr 791, 800, 803, 804, 813, № 6, maddələr 992, 998, 1007, № 7, maddə 1193, № 8, maddələr 1364, 1367, 1368, 1381, 1383, № 11, maddələr 1682, 1686, 1696, № 12, maddələr 1883, 1900; Azərbaycan Respublikasının 2020-ci il 17 mart tarixli 27-VIQD nömrəli, 30 mart tarixli 41-VIQD nömrəli və 24 aprel tarixli 62-VIQD nömrəli qanunları) 222-ci maddəsində "ərzaq" (hər üç halda) sözü "qida" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 may 2020-ci il*

# "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 31 may tarixli 122-VIQD nömrəli Qanununun tətbiqi və "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli 1012-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 aprel tarixli 1923 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 31 may tarixli 122-VIQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alıram:**

1. "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli 1012-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 aprel tarixli 1923 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 4, maddə 674) 4.1-ci bəndindən " və 11-ci maddəsinin üçüncü hissəsinin üçüncü cümləsində" sözləri çıxarılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 iyul 2020-ci il*

# "Qərbi Azərbaycanda soyqırımına məruz qalmış toponimlərimiz" adlı kitabın videokonfrans formatında təqdimatı olub





İyulun 10-da Yeni Azərbaycan Partiyasının İcra Katibliyində tədqiqatçı alim, Milli Məclisin deputatı Əziz Ələkbərlinin "Qərbi Azərbaycanda soyqırımına məruz qalmış toponimlərimiz" adlı kitabının videokonfrans formatında təqdimatı keçirilib. Bu barədə AZƏRTAC-a YAP-ın Mətbuat xidmətindən məlumat verilib.

Təqdimat mərasimində çıxış edən Azərbaycan Respublikası Baş Nazirinin müavini, YAP Sədrinin müavini-icra katibi Əli Əhmədov bildirib ki, Prezident İlham Əliyevin uğurla həyata keçirdiyi hücum diplomatiyasının ən vacib məqamlarından biri tarixin ermənilər tərəfindən saxtalaşdırılmasının ifşa edilməsidir. Biz dəfələrlə beynəlxalq tədbirlərdə Prezidentimiz tərəfindən ermənilərin açıq şəkildə ifşa edilməsinin şahidi olmuşuq. Dövlət başçısının bu istiqamətdə həyata keçirdiyi hücum diplomatiyası Azərbaycanın və Ermənistanın həqiqi tarixinin beynəlxalq auditoriya tərəfindən mənimsənilməsi, dərk edilməsi, onların təsəvvüründə bu bölgənin həqiqi tarixi haqqında mənzərənin formalaşdırılması kimi vacib məqsədə xidmət göstərməkdədir.

Əli Əhmədov deyib ki, saxtakarlıq erməni millətinin ayrılmaz xislətinə, xüsusiyyətinə çevrilib: "Saxtakarlıq tarixən ermənilərin mənimsədiyi məşğuliyyətlərdən biridir. Ermənilər bunu vicdan əzabı çəkmədən ediblər və bu gün də etməkdədirlər. Tarixə münasibətdə də belədir. Özlərinin maraqları naminə vicdan əzabı çəkmədən, tarixi və tarixi hadisələri saxtalaşdırıblar. Tarixin saxtalaşdırılması ermənilərin işğalçı siyasətinin tərkib hissəsi kimi dəyərləndirilməlidir. Onlar işğal etdikləri torpaqların tarixini dəyişmək üçün də tarixi təhrif edir, guya özlərinə məxsus olması üçün yanlış təsəvvür yaratmağa çalışırlar. Tariximizlə yanaşı, mədəniyyətimizə də ermənilər tərəfindən təcavüz edilib və bu gün də edilməkdədir. Bu baxımdan təqdimatına toplaşdığımız kitab bir tərəfdən Prezident İlham Əliyevin Azərbaycan tarixinin dərindən öyrənilməsi ilə əlaqədar səsləndirdiyi tövsiyələrə cavabdırsa, digər tərəfdən tariximizin ermənilər tərəfindən təhrif edilməsinin miqyası ilə əlaqədar təsəvvürlərimizin daha da aydınlaşmasına kömək göstərir. Bu kitabda soyqırımına məruz qalan 1000-ə yaxın toponimimiz əksini tapır. Bu toponimlər dəyişdirilərkən özündən əvvəl mövcud olmuş, azacıq da olsa tarixi kökə məxsus olmuş toponimlə əvəz olunmayıb. Yeni adların heç birinin tarixlə əlaqəsi yoxdur. Bu, sübut edir ki, ermənilər azərbaycanlıların ərazilərini əllərinə keçirdikdən sonra real tarixi bütünlüklə yox etmək kimi çirkin yol seçiblər. Kitab bizim tariximizin çox vacib hissəsinin hər birimiz, xüsusilə gənclərimiz tərəfindən yaxşı mənimsənilməsi üçün gözəl vasitədir".

Kitabın tərtibçisi, Milli Məclisin deputatı, tədqiqatçı-alim Əziz Ələkbərli çıxış edərək bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin tarixi faktlara, sənədlərə istinadən beynəlxalq tribunalardan səsləndirdiyi Azərbaycan həqiqətləri ermənilərin əsrlərboyu dünyaya yaydıqları tarixi yalanları hər gün bir az daha artıq ifşa etməkdədir. Bu həqiqətlər sırasında son iki əsrdə Cənubi Qafqazda yeridilən erməniləşdirmə siyasəti nəticəsində bölgəyə və bölgə xalqlarına gətirilən çoxlu bəlalar, münaqişə, müharibə, deportasiya və soyqırımları xüsusi yer tutur.




Onun sözlərinə görə, 1918-ci ildə Azərbaycan torpaqları hesabına Ararat Respublikası adı ilə tarixdə ilk dövlətlərini yaratmaq fürsəti əldə etmiş ermənilər dərhal öz əsl simalarını ortaya qoydular və onlara bu fürsəti verən region xalqlarına, ilk növbədə, ərazinin yerli sakinləri olan azərbaycanlılara qarşı kütləvi soyqırımı həyata keçirməyə, dinc əhalini qəddarlıqla və kütləvi şəkildə məhv etməyə başlayıblar. Sonra tarixi mənbələr saxtalaşdırıldı, bu ərazilərdə nə varsa hamısı mənimsənildi, abidələrimiz, toponimlərimiz erməniləşdirildi. Bu il iyunun 3-də Azərbaycan Prezidenti İlham Əliyev Tərtər Rayon Olimpiya İdman Kompleksinin açılışındakı çıxışında alimlərimizin diqqətini bir daha bu məsələlərə cəlb etdi ki, bu tarix ciddi şəkildə araşdırılsın, elmi əsərlər ortaya qoyulsun. "Yeni Azərbaycan Partiyasının layihəsi olaraq nəşr olunmuş "Qərbi Azərbaycanda soyqırımına məruz qalmış toponimlərimiz" kitabı da cənab Prezidentin bu çağırışına bir cavabdır. Kitabda Azərbaycanın tarixi torpaqları olan Qərbi Azərbaycan (indiki Ermənistan) ərazisində ermənilər tərəfindən adı dəyişdirilmiş 953 toponimin - oykonim, oronim və hidronimin siyahısı verilib. Bu toponimlər Ermənistan SSR-in soydaşlarımızın sonuncu deportasiyasına qədərki ərazi inzibati bölgüsü - rayonları üzrə qruplaşdırılıb, Qafqaz Hərbi Dairəsinin 1903-cü il hərbi-topoqrafik xəritəsindən hər rayona uyğun görüntülər verilib. Kitaba daxil edilmiş toponimlər hər bir toponimin "köhnə adı", "yeni adı" və "dəyişdirilmə tarixi" (bu dəyişdirilmə ilə bağlı Ermənistan SSR Ali Soveti Fərmanının tarixi) xanaları üzrə qruplaşdırılıb. Bu, özü də toponimlərimizin soyqırımının Ermənistanda dövlət səviyyəsində həyata keçirilməsinin əyani sübutudur.

Kitabda Qərbi Azərbaycan (indiki Ermənistan) ərazisində Azərbaycan toponimlərinin ermənilər tərəfindən dəyişdirilmə prinsiplərinə də xüsusi diqqət yetirilib.

AMEA-nın Naxçıvan bölməsinin rəhbəri İsmayıl Hacıyev çıxışında bu kitabın erməni saxtakarlığının ifşa edilməsində vacib elmi sənəd olduğunu bildirib. Onun fikrincə, kitabın xüsusi əhəmiyyəti ondadır ki, burada təqdim olunmuş sənədlər çar Rusiyasının hazırladığı xəritələrə əsaslanır. İ.Hacıyev erməni saxtakarlığı ilə bağlı elmi araşdırmaların daha da gücləndirilməsinin zəruri olduğunu qeyd edib.

Təqdimat mərasimində çıxış edən Milli Məclisin komitə sədri, YAP Siyasi Şurasının üzvü Musa Quliyev tədqiqatçı alim Əziz Ələkbərlinin bu istiqamətdə sanballı əsərlər yazdığını bildirib. Onun fikrincə, Azərbaycan Prezidentinin çağırışı əsasında Yeni Azərbaycan Partiyasının layihəsi olaraq nəşr olunmuş "Qərbi Azərbaycanda soyqırımına məruz qalmış toponimlərimiz" kitabı da bu baxımdan mühüm elmi əsərdir. M.Quliyev qeyd edib ki, 1828-ci ildə imzalanmış Türkmənçay müqaviləsi Azərbaycanı iki yerə parçalamaqla bitmədi, əslində yeni faciələrimizin də başlanğıcı oldu. Belə ki, bu müqavilənin əsasında tarixi torpaqlarımıza köçürülən ermənilər azərbaycanlılara qarşı soyqırımı törədib, torpaqlarımızı işğal ediblər. O, Qərbi Azərbaycanda adları dəyişdirilən toponimlər barədə faktlarla fikirlərini əsaslandırıb.

M.Quliyev təklif edib ki, təqdimatı keçirilən kitabın elektron versiyası hazırlansın, rus və ingilis dillərinə tərcümə olunaraq internetdə yerləşdirilsin. Belə olarsa, dünya ictimaiyyəti də ermənilərin törətdiyi cinayətlərlə daha yaxından tanış ola biləcəklər.

Tədbirdə çıxış edən Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli nəşr olunmuş kitabın elmi nöqteyi-nəzərdən əhəmiyyətini vurğulayıb. Ə.Hüseynli sovetlər hakimiyyəti dövründə ermənilərin toponimlərin adlarını mərhələlərlə dəyişdirdiklərini deyib və bunu faktlarla diqqətə çatdırıb. Onun sözlərinə görə, Ümummilli Liderimiz Heydər Əliyev Azərbaycanda hakimiyyətə gəldikdən sonra ermənilər Ermənistan SSR-də toponimlərimizin dəyişdirilməsinə cəsarət etməyiblər. Bunun nümunəsi kimi, 1969-1979-cu illərdə həmin ərazilərdə heç bir yer adı dəyişdirilməyib. Birinci vitse-spiker qeyd edib ki, azərbaycanlıların indiki Ermənistan ərazisindən son deportasiyası illərində azərbaycanlılar bu deportasiyaya qarşı ciddi müqavimət göstəriblər. Bu məsələ də alimlərimiz tərəfindən araşdırılmalı və elmi-tarixi əsərlər ortaya qoyulmalıdır. Çünki bu deportasiya faktı da cinayətdir, beynəlxalq hüquqa zidd addımdır. Bu məsələlərlə bağlı faktların geniş dünya ictimaiyyətinə çatdırılması ermənilərə ciddi zərbə ola bilər.

Tədbirdə, həmçinin YAP İdarə Heyətinin üzvü, akademik Abel Məhərrəmov, akademik Fikrət Əliyev və professor Şahlar Əsgərov çıxış edərək təqdimatı keçirilən kitabın əhəmiyyətini vurğulayıblar. Çıxışlarda ermənilərin soyadlarımızı da mənimsəməyə çalışdıqları bildirilib, eləcə də İrəvan şəhərinin tarixi maketinin hazırlanması, erməni saxtakarlığı ilə bağlı kitabların xarici dillərə tərcümə edilməsi təklif edilib.

Tədbirə yekun vuran YAP Sədrinin müavini Əli Əhmədov çıxış edən natiqlərin dəyərli təkliflər irəli sürdüyünü deyib. O, təqdimatı keçirilən kitabın elektron versiyasının hazırlanmasının, rus və ingilis dillərinə tərcümə edilməsinin nəzərdə tutulduğunu bildirib. YAP Sədrinin müavini həmçinin qeyd edib ki, 1948-1953-cü illərdə sovet hökuməti tərəfindən azərbaycanlıların deportasiyaya məruz qalması və azərbaycanlıların hüquqlarının bərpa edilməsi məsələsi gündəmə gətirilməli, beynəlxalq müstəviyə çıxarılmalıdır. Çünki həmin dövrdə deportasiyaya məruz qalmış digər xalqlar sonradan öz hüquqlarını bərpa ediblər. Hüquqları bərpa olunmayan yeganə xalq isə azərbaycanlılardır.

Sonda Əli Əhmədov Prezident İlham Əliyevin çağırışlarına cavab olaraq ermənilərin tarixi saxtalaşdırmaq cəhdləri, onların işğalçılıq siyasəti ilə əlaqədar bundan sonra da elmi-tədqiqat işlərinin aparılacağını diqqətə çatdırıb.

# Azərbaycan və Litva arasında İkitərəfli Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 6-cı iclası keçirilib

**İyulun 10-da Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti arasında İkitərəfli Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın videokonfrans formatında 6-cı iclası keçirilib.**

İqtisadiyyat Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, hər iki tərəfdən müvafiq dövlət qurumlarının nümayəndələrinin iştirak etdiyi iclasda Hökumətlərarası Komissiyanın həmsədri, İqtisadiyyat naziri Mikayıl Cabbarov Azərbaycanın Litva ilə dostluq və tərəfdaşlıq əlaqələrini yüksək qiymətləndirdiyini qeyd edib, dövlət başçılarının siyasi iradəsinin, ölkələrimizin malik olduğu böyük iqtisadi potensialın əməkdaşlığın uğurlu inkişafı üçün əlverişli şərait yaratdığını vurğulayıb. İqtisadi-ticarət əməkdaşlığının genişləndirilməsinin Azərbaycan Prezidenti İlham Əliyev və Litva Prezidenti Qitanas Nauseda arasında bu ilin aprelində videokonfrans formatında keçirilmiş görüşdə geniş müzakirə edildiyi diqqətə çatdırılıb.

Qeyd edilib ki, Hökumətlərarası Komissiya ikitərəfli iqtisadi-ticarət əlaqələrinin dərinləşməsinə töhfə verir, müxtəlif sferalarda layihələrin həyata keçirilməsinə dəstək göstərilir. Bildirilib ki, indiyədək Azərbaycanla Litva arasında müxtəlif sahələrdə 40-a yaxın, o cümlədən investisiyaların qarşılıqlı qorunması və təşviqi, ikiqat vergitutmanın aradan qaldırılması barədə sənədlər imzalanıb. Ölkəmiz Litva ilə iqtisadi əlaqələrin genişləndirilməsində maraqlıdır. Bu ilin ilk 5 ayında iki ölkə arasında ticarət dövriyyəsi ötən ilin müvafiq dövrü ilə müqayisədə 42 faiz artıb. İnvestisiya, ticarət, kənd təsərrüfatı, energetika, informasiya texnologiyaları, turizm, mədəniyyət və sair sahələrdə qarşılıqlı faydalı əlaqələr qurulub. Azərbaycanın tikinti, ticarət, xidmətlər, bank işi və sığorta sahələrində Litva kapitallı 17 şirkət fəaliyyət göstərir.

İqtisadiyyat naziri Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının, xüsusilə Şərq Tərəfdaşlığı Proqramı çərçivəsində əlaqələrin genişləndirilməsində Litvanın dəstəyini vurğulayıb. Qeyd edib ki, Azərbaycan Avropa İttifaqı ilə 2013-cü ildə imzalanmış mobillik sahəsində tərəfdaşlıq haqqında Bəyannamə çərçivəsində reallaşdırılan layihə və təşəbbüslərdə Litva qurumlarının texniki və konsultativ dəstəyini yüksək qiymətləndirir.

COVID-19 pandemiyasının neqativ təsirlərindən danışan M.Cabbarov bu təsirlərin Azərbaycan iqtisadiyyatından da yan keçmədiyini bildirib və qısa müddətdə hazırlanmış Tədbirlər Planına uyğun olaraq sosial-iqtisadi dəstək tədbirləri, sahibkarlığın inkişafı və tətbiq edilən yeni mexanizmlər, Elektron Kredit Platforması, vergi güzəşt və tətilləri, investisiya cəlbediciliyinin artırılması istiqamətində görülən işlər barədə məlumat verib. Nazir cari ilin əvvəlində Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzinin filialının Azərbaycanda yaradılması barədə qərar qəbul edildiyini, mərkəzin fəaliyyətindən digər ölkələrin də faydalana bilməsi üçün zəruri tədbirlərin görüləcəyini diqqətə çatdırıb.

O, Azərbaycanın əlverişli biznes və investisiya mühiti, sənaye, tranzit-logistika, kiçik və orta sahibkarlıq, innovasiya və rəqəmsallaşdırma, kənd təsərrüfatı, turizm və sair sahələrdə potensialını, Litva ilə bu istiqamətlər üzrə əməkdaşlığın inkişaf etdirilməsi imkanlarını vurğulayıb.

Hökumətlərarası Komissiyanın həmsədri, Litvanın Xarici İşlər naziri Linas Linkyaviçyus ölkəsinin Azərbaycanla əməkdaşlığa önəm verdiyini, bu ilin noyabrında ölkələrimiz arasında diplomatik münasibətlərin yaranmasının 25 ilinin tamam olacağını vurğulayıb, qarşılıqlı iqtisadi əlaqələrin genişləndirilməsi imkanlarını qeyd edib. Litvalı nazir ölkəsinin pandemiyanın mənfi təsirlərinin aradan qaldırılması istiqamətində həyata keçirdiyi tədbirlər barədə də məlumat verib.

Onlayn iclasda iqtisadi-ticarət əməkdaşlığının genişləndirilməsi istiqamətləri müzakirə edilib. Müzakirələrdə hər iki tərəfdən Hökumətlərarası Komissiyanın üzvləri ticarət, kənd təsərrüfatı və ərzaq təhlükəsizliyi, energetika, nəqliyyat, innovasiya və informasiya texnologiyaları, ətraf mühitin mühafizəsi, mədəniyyət və sair sahələrdə əlaqələrin inkişafı imkanlarına dair fikirlərini bildiriblər.

İclasın sonunda Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti arasında İkitərəfli Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 6-cı iclasının yekunlarına dair Protokol imzalanıb. Sənədi Hökumətlərarası Komissiyanın həmsədrləri - Azərbaycanın İqtisadiyyat naziri Mikayıl Cabbarov və Litvanın Xarici İşlər naziri Linas Linkyaviçyus imzalayıblar. Sənəddə ticarət, investisiya, sənaye, energetika, kənd təsərrüfatı, qida təhlükəsizliyi, ətraf mühit, nəqliyyat, İKT, innovasiya, turizm, təhsil və elm, mədəniyyət və sair sahələrdə əməkdaşlığın genişləndirilməsi nəzərdə tutulur.

# Baş Prokurorluğun nümayəndə heyəti onlayn qaydada keçirilən beynəlxalq konfransda iştirak edib

Azərbaycan Respublikasının Baş Prokurorluğu cinayətkarlığın müxtəlif formaları, o cümlədən korrupsiya hüquqpozmalarına qarşı mübarizədə beynəlxalq təşkilatların tövsiyələrinin, müvafiq konvensiyaların müddəalarının yerinə yetirilməsi, qarşılıqlı təcrübə mübadiləsinin, elmi araşdırmaların aparılması, ikitərəfli və çoxtərəfli tədbirlərin keçirilməsi, habelə beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi, digər dövlətlərin hüquq-mühafizə orqanları və ixtisaslaşdırılmış antikorrupsiya qurumları ilə əməkdaşlıq əlaqələrinin qurulması, bu sahədə beynəlxalq təcrübənin öyrənilməsi istiqamətində fəaliyyətini davam etdirir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Albaniya Respublikasının Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına (ATƏT) sədrliyi çərçivəsində "Zoom" proqramı vasitəsilə "Rəqəmsal erada yaxşı idarəçilik və korrupsiyaya qarşı mübarizə: şəffaflıq, dürüstlük və cavabdehlik prinsiplərinin gücləndirilməsi" mövzusunda yüksəksəviyyəli konfrans keçirilib.

Albaniyanın Baş Naziri və Xarici İşlər naziri Edi Ramanın təşəbbüsü ilə keçirilən tədbirdə 100-dən artıq iştirakçı - müxtəlif dövlətlərin prokurorluq və digər hüquq-mühafizə orqanlarının, habelə beynəlxalq təşkilatların yüksəkvəzifəli nümayəndələri iştirak ediblər.

Tədbirdə ölkəmizi Azərbaycan Respublikası Baş prokurorunun müavini - Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbovun rəhbərliyi ilə Preventiv Tədbirlər və Təhqiqat İdarəsinin rəisi Səbuhi Alıyev və Təşkilati və İnformasiya Təminatı İdarəsinin böyük prokuroru Pirayə Səmədzadə-Əliyevadan ibarət nümayəndə heyəti təmsil edib.

Avropa qitəsində təhlükəsizliyin təmin edilməsi üçün ATƏT-in həyata keçirdiyi üç əsas fəaliyyət istiqamətlərindən biri olan korrupsiyaya qarşı mübarizənin aktual məsələlərinə həsr olunan konfransda ATƏT-in Baş katibi Tomas Qreminger, Monteneqronun Dövlət İdarəetmə naziri Suzana Pribilovic, Makedoniyanın Xarici İşlər naziri Nikola Dimitrov, İtaliya Deputatlar Palatasının üzvü Vittorio Ferraresi, Beynəlxalq Antikorrupsiya Akademiyasının dekanı Thomas Stelzer, Özbəkistanın Xarici İşlər nazirinin müavini Şerzod Asadov, Gürcüstanın Ədliyyə nazirinin müavini Goca Lordkipanidze, İsveçrənin ATƏT, BMT və Vyanadakı beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi Volfqanq Amadeus Brülhart, eləcə də Avropa Şurasının rəhbər heyəti, bir sıra ölkələrin ədliyyə nazirləri, korrupsiyaya qarşı mübarizə qurumlarının rəhbərləri və digər vətəndaş cəmiyyəti institutlarının üzvləri, həmçinin tanınmış elm xadimləri iştirak ediblər.

Konfrans zamanı təhlükəsizliyin, sabitliyin və iqtisadi inkişafın təşviqində yaxşı idarəçiliyin və korrupsiyaya qarşı mübarizənin rolu, bu sahədə əldə edilmiş müsbət təcrübə, ATƏT məkanında antikorrupsiya strategiyası və antikorrupsiya orqanları, eləcə də informasiya texnologiyalarının yaratdığı imkanlar, korrupsiyaya qarşı mübarizədə məlumat verən şəxslərin, kütləvi informasiya vasitələrinin və vətəndaş cəmiyyətinin rolu, korrupsiya cinayətlərinin istintaqı zamanı beynəlxalq əməkdaşlıq və sair kimi məsələlər üzrə müzakirələr və faydalı fikir mübadiləsi aparılıb.

# Qlobal liderlik missiyası

*Əvvəli 1-ci səh.*

## Milli maraqlarımız layiqincə təmin olunur

Onu da qeyd edək ki, Azərbaycanın müstəqil, öz milli maraqlarını təmin edən siyasət yürütməsi respublikamızı beynəlxalq nüfuz baxımından xarakterizə edən ən əsas keyfiyyətlərdən biridir. Ən mühümü odur ki, ölkəmiz dünyanı düşündürən aktual, qlobal narahatlıq doğuran bütün məsələlərdə özünün qətiyyətli və cəsarətli mövqeyini ortaya qoyur.

Bunun nəticəsidir ki, dünya ictimaiyyəti enerji təhlükəsizliyi, regional iqtisadi əməkdaşlıq, beynəlxalq terrorçuluqla mübarizə və digər bu kimi məsələlərdə Azərbaycanın mövqeyini bölüşür. Bu siyasətin nəticəsidir ki, Azərbaycan beynəlxalq birliyin fəal və qəbul edilən üzvünə çevrilib. Respublikamız Cənubi Qafqaz regionunda sabitləşdirici rol oynayan dövlət, Avropa ilə Asiyanı daha sıx bağlayan nəhəng iqtisadi və enerji layihələrinin təşəbbüsçüsü və təşkilatçısı kimi çox böyük nüfuz, etibar qazanıb. Tarixi İpək yolunun bərpası, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin inşası, Bakı-Tbilisi-Qars dəmir yolunun və "Cənub qaz dəhlizi"nin çəkilməsi, kosmosa üç peykin göndərilməsi Azərbaycanın regionda lider mövqelərini, dünya birliyindəki yerini daha da möhkəmləndirib.

Siyasi sahəyə gəldikdə, Azərbaycanın həyata keçirdiyi daxili və xarici siyasət milli maraqlarımızı, dövlətimizin qlobal miqyasda mövqelərini layiqincə təmin edir. Eyni zamanda bu siyasət müasir beynəlxalq münasibətlərdə mövcud çağırış və təhdidlərə adekvat reaksiya verərək özünü uğurla doğruldur.

Rəsmi Bakı daim dəyişən beynəlxalq mühitə uyğun çevik siyasi kursla yanaşı, müstəqilliyin və suverenliyin gücləndirilməsi, ərazi bütövlüyünün bərpasına istiqamətlənmiş fəal xarici siyasət yürüdür. Bu mənada son illər sülh danışıqları prosesində Ermənistanın çıxılmaz vəziyyətə salınması, beynəlxalq təşkilatlarda ərazilərimizin işğalını pisləyən sənədlərin qəbul edilməsi Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin məntiqi nəticəsi, respublikamızın diplomatik sahədə böyük uğurlarıdır.

Azərbaycan Prezidentinin həyata keçirdiyi siyasət nəticəsində milli və dövlətçilik maraqlarımız layiqincə təmin olunur. Bu siyasət qlobal pandemiya şəraitində də uğurla davam etdirilir. Belə bir dövrdə respublikamızın qlobal liderlik missiyasını öz üzərinə götürməsi həm də onun beynəlxalq nüfuzunun daha da yüksəlməsinə xidmət edir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## *Sergey LAVROV:* "BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi barədə Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə bağlı müzakirələr başlanır"

Qoşulmama Hərəkatının sammitində Azərbaycan Prezidenti İlham Əliyevin BMT-nin Baş Assambleyasının koronavirusa həsr edilmiş xüsusi sessiyasının keçirilməsi barədə təşəbbüsünün BMT-də müzakirəsi iyulun 10-da başlanır, hərçənd xüsusi sessiyanın keçirilməsi müddəti hələ müəyyən edilməyib.

AZƏRTAC xəbər verir ki, Rusiyanın Xarici İşlər naziri Sergey Lavrov bunu "Primakov qiraətləri" beynəlxalq elmi-praktiki forumda TASS Agentliyinin sualına cavab olaraq bildirib.

Nazir deyib: "Əlbəttə, bilirik ki, Qoşulmama Hərəkatının, - bu Hərəkata hazırda Azərbaycan sədrlik edir, - təşəbbüsü ilə Baş Assambleyanın COVID-19 mövzusuna həsr edilmiş xüsusi sessiyası çağırılacaq, lakin sessiya bir qədər sonra keçiriləcək. Bu gün, iyulun 10-da isə xüsusi sessiyanın çağırılmasında rəhbər götürüləcək qaydaların prosedur baxımından tərtibatı başlanır, çünki koronavirus infeksiyası şəraitində qeyri-adi distant formada çağırılan bütün tədbirlər təşkilati-prosedur məqamları baxımından razılaşdırılmalıdır. Ona görə də bu gün yalnız prosedur məqamları müzakirə ediləcək, xüsusi sessiyanın çağırılması tarixi isə hələ müəyyən edilməyib".

S.Lavrov qeyd edib ki, BMT-də pandemiya ilə bağlı məsələlər üzərində işdə müəyyən nəticələr əldə edilib. Rusiyalı nazir vurğulayıb: "Mən düşünürəm ki, BMT-ni COVID-19 təhdidlərinə münasibət bildirmək baxımından gecikmiş, astagəl adlandırmağa əsasımız yoxdur. Baş Assambleya barədə danışmalı olsaq, o, artıq iki dəfə toplaşıb. Bu vəziyyətin ilkin mərhələsində koronavirusa qarşı mübarizə üzrə dünya birliyinin vəzifələrinə həsr edilmiş iki qətnamə qəbul edilib. Nəhayət, lap yaxın vaxtlarda Təhlükəsizlik Şurası COVID-19 barədə qətnamə qəbul edib. Biz bunu uzun müddət edə bilmirdik, çünki amerikalılar bu sənəddə Ümumdünya Səhiyyə Təşkilatının rolunun qeyd olunmasını qətiyyətlə istəmirdilər. Sonda həm bu rolu qeyd etməyə, həm də konsensusu təmin etməyə imkan verən sözlər tapıldı".

## *Vasili NEBENZYA:* "Azərbaycan Prezidentinin təşəbbüsü zəruri sayda BMT üzvləri tərəfindən dəstəklənib"

"BMT Baş Assambleyasının koronavirusa həsr edilmiş xüsusi sessiyasında müzakirələr yaxın vaxtda başlanacaq. Bu xüsusi sessiyanın keçirilməsi təşəbbüsü ilə Azərbaycan Prezidenti İlham Əliyev çıxış edib". AZƏRTAC xəbər verir ki, Rusiyanın BMT-dəki daimi nümayəndəsi Vasili Nebenzya bu sözləri TASS Agentliyinin Baş direktorunun birinci müavini Mixail Qusmana müsahibəsində söyləyib.

V.Nebenzya bir məqama diqqəti cəlb edib ki, pandemiya hamını qəfildən yaxalayıb. O deyib: "Biz buna hazır deyildik. Birtəhər uyğunlaşmışıq, lakin iqtisadi, siyasi, sosial, tibbi və yəqin ki, psixiatrik nəticələrin hamısını bilmirik. Əgər yaxın gələcəkdə normal həyat ritminə qayıdacağımızı bilsəydik, sual olmazdı - Baş Assambleyanın zalında toplaşıb belə bir sessiya keçirərdik, lakin əgər belə olmasa, biz prosesin təmizliyini hansı prosedurlar vasitəsilə təmin etmək barədə düşünməliyik". Daimi nümayəndənin sözlərinə görə, bu məsələ yaxın vaxtlarda müzakirə ediləcək.

V.Nebenzya xatırladıb ki, Azərbaycan Prezidentinin təşəbbüsü bu tədbirin təşkil edilməsi üçün zəruri sayda BMT üzvləri tərəfindən dəstəklənib. Lakin bu ideyanın həyata keçirilməsi məhz pandemiya səbəbindən hələlik çətindir. Siyasətçi deyib: "Məsələ modallıqlarla bağlıdır. BMT Baş Assambleyasının videoformatda xüsusi sessiyalarının keçirilməsi sahəsində təcrübəmiz yoxdur. İndi Baş Assambleyanın iclasları keçirilmir. Keçirilən iclaslar BMT-nin bu əsas orqanının rəsmi tədbirləri deyil, ona görə də bu məsələ müzakirə tələb edir.

Vasili Nebenzyanın fikrincə, bu tədbirin təşkili üçün hər cür imkan var. O deyib: "Əgər Baş Assambleyanın xüsusi sessiyası əvəzinə yüksəksəviyyəli iclas keçirilməsindən söhbət getsə, belə bir format var. Onun üçün xüsusi prosedur tələb edilmir, belə iclası istəsəniz lap yaxın vaxtda keçirə bilərik. Baş Assambleyanın xüsusi sessiyası isə, əlbəttə, daha sanballı və siyasi əhəmiyyətli tədbirdir və biz həyatın bizə yaradacağı imkanlar və formatlar barədə düşünəcək, baxacaq və ən başlıcası, buna oriyentasiya edəcəyik".

Xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyev Qoşulmama Hərəkatının Təmas Qrupunun Zirvə görüşündə pandemiyaya qarşı mübarizənin müzakirə edilməsi məqsədilə BMT-nin Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyasının keçirilməsi barədə təkliflə çıxış edib.

◆ Milli maraqlar naminə əməkdaşlıq

# Siyasi plüralizm və yeni siyasi konfiqurasiya

*Əvvəli 1-ci səh.*

Azərbaycan Respublikasının Milli Məclisində təmsil olunan siyasi partiyaların sədrləri və nümayəndələri tərəfindən siyasi partiyalar arasında geniş müzakirələrin aparılması üçün "Azərbaycanda yeni siyasi konfiqurasiya: Pandemiya dövrü və yeni çağırışlar" mövzusunda videokonfrans formatında görüş keçirilməsi də bu istiqamətdə irəliyə doğru atılan addımlardan biridir.

Tədbiri giriş sözü ilə açan Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, "olduqca aktual mövzuya həsr edilən tədbirdə pandemiya dövründə meydana çıxan yeni çağırışlar fonunda siyasi sistemin əsas elementləri olan siyasi partiyaların fəaliyyəti müzakirə ediləcək".

Doğrudan da, birmənalı təsdiq olunur ki, Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən siyasi islahatların gətirdiyi dəyişikliklər bütövlükdə ölkədə yeni dialoq və əməkdaşlıq mühitini daha da möhkəmləndirmiş, ölkədə sabitliyin, siyasi və milli həmrəyliyin daha da möhkəmləndirilməsi üçün qüvvətli əsaslar yaratmışdır.

Onu da qeyd edək ki, bu əhəmiyyətli ideoloji və siyasi işin əsas istiqamətlərini dövlət başçısı VI çağırış Milli Məclisin ilk iclasındakı nitqində aydın şəkildə müəyyənləşdirmişdir. Bu sarıdan Prezidentin dərin məzmunlu, kifayət qədər konseptual xarakterli nitqi siyasi sistemin də komponentlərini və perspektivlərini əhatə etməklə ölkənin siyasi konfiqurasiyasında və ictimai münasibətlər sisteminin təkmilləşdirilməsində yeni tarixi mərhələ kimi qiymətləndirilə bilər. Nəzərə alınmalıdır ki, parlament plüralizmi fərqli fikirlərin azad və sərbəst rəqabətinə yol açmaqla bir yandan cəmiyyətdəki fikir plüralizminin parlamentə daşınmasına, digər tərəfdən isə demokratik baxış və rəylərin cəmiyyətin siyasi mədəniyyətində möhkəm kök salmasına yol açır. Fərqli fikir və baxışların bu cür yarışı həm cəmiyyətdəki düşüncə gərginliyini səngidir, həm də inkişafımızın ən doğru və düzgün yolunu axtarıb tapmaqda ölkə rəhbərliyinə kömək edir.

Heç kimə sirr deyil ki, parlament hakimiyyət bölgüsünün vacib qolu, ölkədə həyata keçirilən siyasi islahatların mühüm mərkəzi olmaqla demokratik siyasi sistemin təkmilləşdirilməsində və siyasi qüvvələr nisbətinin düzgün müəyyənləşdirilməsində daim ön plana çıxan strukturlardandır. Son parlament seçkiləri də bunu əyani surətdə təsdiq etdi. VI çağırış Milli Məclisdə rəhbər orqanların tam dəyişdirilməsi, ilk dəfə olaraq müxalifət nümayəndəsinin Milli Məclis Sədrinin müavini vəzifəsinə seçilməsi, bununla yanaşı, müxalifət nümayəndələrinin həm sədr, həm də müavin vəzifələrində parlamentin komitələrinə başçılıq etmələri haqqında danışdığımız siyasi konfiqurasiyanın ayrı-ayrı elementləridir.

Demokratik parlament quruculuğu ənənələrinin ən yaxşı nümunələrinə söykənən bu konfiqurasiya siyasi sistemin yeniləşməsinə yol açmaqla yanaşı, Milli Məclisdə gedən proseslərə müsbət təsir göstərir. Artıq başa çatmış yaz və növbədənkənar sessiyalarda parlamentin uğurla fəaliyyət göstərməsi, eləcə də buna ictimai rəyin müsbət olması reaksiyası həyata keçirilən islahatların pozitiv nəticəsi kimi qiymətləndirilə bilər. Yeni siyasi konfiqurasiya çoxrəngliliyin, çoxsəsliliyin təcəssümü kimi də dəyərləndirilə bilər. Belə ki, qanunları yaradan orqanımızın monotonluqdan, fikirlər və mövqelər üzərindəki inhisarçılıqdan xilas olduğunu, azad sözün, azad fikrin sərbəst dolaşdığı bir məkana çevrildiyini cəsarətlə söyləmək olar.

Milli Məclis qlobal pandemiyanın yaratdığı çətinliklərə baxmayaraq, üzərinə düşən vəzifələrin öhdəsindən gəlməyə çalışıb: yaz sessiyasında 12 iclas keçirilib, 123 qanun və qərar, o cümlədən 2 konstitusiya qanunu qəbul edilib. Milli Məclisin iclaslarında Nazirlər Kabinetinin, Hesablama Palatasının, İnsan Hüquqları üzrə Müvəkkilin, Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın və İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun hesabat və məruzələri dinlənilib. İyunun 30-da başa çatan növbədənkənar sessiya dövründə isə Milli Məclisin 8 iclası keçirilib, 35 qanun və qərar qəbul edilib. Bu, bir daha təsdiq edir ki, belə bir göstərici, bu cür fəallıq azad, demokrat fikrin mövcudluğu şəraitində baş verə bilər.

Bu gün Azərbaycan parlamenti cəmiyyətdə mövcud olan əsas siyasi qüvvələrin, cərəyanların və fikirlərin bütün spektrini tam əks etdirir, siyasi dialoq, milli və dövlətçilik məsələləri ətrafında əməkdaşlıq mühitinin möhkəmlənməsi Azərbaycanda siyasi münasibətlərin sağlam zəmində qurulmasına xidmət edir. Onu da əlavə edək ki, bu həm də, pandemiya dövründə cəmiyyətdə kəskin ehtiyac duyulan siyasi və milli həmrəyliyin daha da güclənməsi, cəmiyyətin monolitliyinin möhkəmləndirilməsi işinə mühüm töhfə deməkdir.

Prezident Administrasiyasının şöbə müdiri Ədalət Vəliyev videokonfransda çıxış edərək Azərbaycan Respublikasının Prezidenti tərəfindən dövlət idarəçiliyinin bütün istiqamətlərini əhatə edən çoxşaxəli islahatlar aparıldığını, ölkənin daha da qüdrətlənməsi və dünya birliyində yüksək mövqe tutması, xalqın rifah halının daha da yüksəldilməsi üçün genişmiqyaslı tədbirlər görüldüyünü, eləcə də həyata keçirilən müxtəlif xarakterli dövlət proqramlarının cəmiyyətin bütün üzvlərini əhatə etməsinin diqqətdə saxlanılmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin danılmaz xidmətləri olduğunu görüş iştirakçılarının nəzərinə çatdırıb.

Ədalət Vəliyev aparılan köklü struktur və kadr islahatlarına toxunaraq, Prezident Administrasiyasında ilk dəfə olaraq xüsusi struktur bölməsinin yaradılmasının ölkə rəhbərliyinin siyasi partiyalarla müntəzəm iş aparılması, sağlam əməkdaşlığın qurulması, habelə Milli Məclis ilə daha nizamlı əlaqələrin təşkili işinə verdiyi əhəmiyyətdən irəli gəldiyini diqqətə çatdırıb və qeyd edib ki, şöbə tərəfindən dövlət başçısının tapşırığı ilə indiyə qədər görülmüş işlər, aparılmış təhlillər, siyasi partiyalarla yaxından tanışlıq və əməkdaşlığa yönəlmiş çoxsaylı görüşlər, habelə konstruktiv əməkdaşlığın qurulması, yeni siyasi mədəniyyətin təşəkkülü barədə ətraflı təssəvvür yaradır.



Əlavə edib deyək ki, məhz şöbə tərəfindən proseslərə novatorcasına yanaşmanın nəticəsidir ki, cəmiyyətin siyasi palitrasında qarşıdurmadan əməkdaşlığa, destruktiv şüarçılıq, qaragüruhçuluqdan konstruktivliyə doğru kəskin dönüş əmələ gəlmiş, cəmiyyətin mənəvi-siyasi birliyi daha da möhkəmlənmişdir. Bu gün cəmiyyəti maraqlandıran müzakirə və polemikaların küçə və meydanlardan parlamentə, digər hakimiyyət orqanlarına və ciddi kütləvi informasiya vasitələrinə daşınmasına daha yaxşı şərait yaradılıb.

Ətrafına xeyli intellektual qüvvələr, könüllülər cəlb etməyi bacaran şöbə öz işini müasir tələblər səviyyəsində qura bilib və tədricən cəmiyyətdəki siyasi partiyalar arasındakı miqyaslı işin generatoruna çevrilib. O da xüsusi vurğulanmalıdır ki, Prezidentin təşəbbüsü və iradəsi ilə Azərbaycanda siyasi islahatların artıq yeni mərhələsi başlanıb, siyasi sistemin yeni konfiqurasiyası formalaşmaqdadır və bu, pozitiv proses iqtidar-müxalifət münasibətlərinin müzakirələr və qarşılıqlı dialoq vasitəsilə inkişaf etdirilməsinə söykənir. Bu cəmiyyətimizin ictimai-siyasi həyatında baş verən dərin keyfiyyət dəyişilikliyi, siyasi idarəçiliyimizi dünya standartları səviyyəsinə qaldırmaq naminə ortaya qoyulan siyasi iradənin göstəricisidir.

Siyasi konfiqurasiyanın yeni forması artıq bir vaxtlar mövcud olmuş siyasi konfrontasiya mühitini siyasi dialoq və barış müstəvisinə gətirməyə imkan vermiş, cəmiyyəti xeyli sabitləşdirmiş, yeni siyasi ənənələrin formalaşmasına rəvac vermişdir. Siyasi partiyaların qeydiyyatının davam etdirilməsi, yeni partiyalar hesabına cəmiyyətin təşkilatlanmasının, cəmiyyətin siyasi ab-havasının daha yaxşı təmizlənməsinin təmin edilməsi siyasi plüralizmin dərinləşməsinə və çoxpartiyalı siyasi sistemin inkişaf edib möhkəmlənməsinə yeni perspektivlər açmışdır. İndi siyasi partiyalar da, onların liderlərinin qayğıları da hər bir Azərbaycan vətəndaşı kimi dövlətin diqqət mərkəzindədir.

Siyasi islahatların dərinləşdirilməsi üçün növbəti mərhələnin Milli Məclisdə təmsil olunan siyasi partiyaların yaxından iştirakı, onların təmannasız rolu və daima hiss edilən rolu ilə aparılacaq partiyalararası konstruktiv siyasi müzakirələr olduğunu bildirən natiq Azərbaycan dövlətçiliyi üçün prinsipial olan məsələlərin yalnız və yalnız milli həmrəylik yolu ilə həll edilməsinin vacibliyini qeyd edərək ölkə rəhbərliyinin koronavirus pandemiyası ilə mübarizədə həm ölkə daxilində, həm də qlobal miqyasda həyata keçirdiyi tədbirlər, habelə korrupsiyaya qarşı mübarizə barədə geniş məlumat verib.

Pandemiya dövründə dövlət başçısının siyasətinin prioritetinin insanların sağlamlığı və onların sosial müdafiəsinin təmin edilməsi olduğu, bütün zəruri qabaqlayıcı tədbirlərin görüldüyü, xəstələrin ödənişsiz müalicəsi üçün onlarla xəstəxana ayrıldığı, eləcə də müasir modul tipli 10 xəstəxana tikilib istifadəyə verildiyi, zəruri tibbi avadanlıqlar alındığı, qısa müddət ərzində ölkədə lazımi tibbi ləvazimatların istehsalına başlanıldığı, habelə iqtisadi sabitliyin və məşğulluqla bağlı problemlərin həlli üçün 3,5 milyard manatdan artıq dəstək paketi qəbul olunduğu, 900 mindən çox işçinin əməkhaqqı tam həcmdə saxlanılmaqla, qeyri-dövlət sektoru üzrə 690 min işçinin əməkhaqqının əhəmiyyətli hissəsinin dövlət tərəfindən ödənildiyi, bununla yanaşı, 600 min aztəminatlı, işsiz və qeyri-rəsmi çalışan vətəndaşa yaşayış minimumuna uyğun olaraq vəsait ödənilməsinin təmin olunduğu və bu işin bu gün də davam etdirildiyi, eləcə də vergiödəyiciləri üçün vergi güzəştləri və vergi tətillərinin nəzərdə tutulduğu Prezident Administrasiyasının şöbə müdiri tərəfindən diqqətə çatdırılıb. Görülən tədbirlər çərçivəsində ölkə rəhbərinin təşəbbüsü ilə həm də rəmzi məna daşıyan və Azərbaycan cəmiyyətinin həmrəyliyini nümayiş etdirən Koronavirusla Mübarizəyə Dəstək Fondunun təsis edildiyi, həm ölkə Prezidenti, həm də Birinci vitse-prezident tərəfindən özlərinin birillik əməkhaqqı məbləğlərinin fonda ianə edilməsinin xüsusi rəğbət doğurduğu, eyni zamanda Mehriban xanım Əliyevanın bilavasitə təşəbbüsü və rəhbərliyi ilə Heydər Əliyev Fondu vasitəsilə qayğıya ehtiyacı olanlara bu çətin günlərdə göstərilən yardımların insanpərvərliyin və milli həmrəyliyin bariz nümunəsi olduğu vurğulanıb.

Ə.Vəliyev qeyd edib ki, Ümumdünya Səhiyyə Təşkilatının pandemiya ilə mübarizədə nümunəvi hesab etdiyi Azərbaycan tərəfindən həmçinin könüllü beynəlxalq ianələr ayrılıb, 30-dan artıq dövlətə humanitar yardımlar edilib. Bununla yanaşı, 150 ölkənin kredit üçün müraciət etdiyi şəraitdə Azərbaycanın dayanıqlı iqtisadiyyatı sayəsində buna ehtiyacı olmadığı bildirilib. Bu dövrdə Azərbaycanın qlobal liderlik nümayiş etdirərək nüfuzlu beynəlxalq təşkilatların yüksəksəviyyəli görüşlərinin təşəbbüskarı kimi çıxış etdiyi iştirakçıların diqqətinə çatdırılıb. Azərbaycan Prezidentinin təşəbbüsü ilə 130-dan çox dövlətin dəstəyi ilə BMT Baş Məclisinin pandemiyaya dair növbədənkənar sessiyasının çağırılmasına dair qərar xüsusilə diqqəti cəlb edib. Bu təşəbbüsün qəbul edilməsi Azərbaycanın beynəlxalq aləmdəki imicini daha artırmış, ölkəmizin beynəlxalq münasibətlərdə oynadığı rola xüsusi bir dinamizm vermişdir.

Prezident Administrasiyasının rəsmisi Azərbaycanda həyata keçirilən islahatların prioritet istiqamətlərindən biri olan korrupsiyaya qarşı mübarizənin pandemiya şəraitində də səngimədiyinə toxunaraq, Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən yüksək peşəkarlıqla həyata keçirilən tədbirlər barədə də danışıb. O, həmçinin pandemiya dövründə ölkədəki siyasi partiyaların mütləq əksəriyyətinin dövlət başçısının siyasətini yaxından dəstəklədiyini, Azərbaycanda iqtidar ilə müxalifət arasında milli maraqlar naminə indiyədək müşahidə edilməyən yaxınlaşmanın və ölkənin siyasi mühitində sağlam əməkdaşlıq şəraitinin meydana gətirdiyini vurğulayıb. Çıxışının sonunda Ə.Vəliyev siyasi partiyaları dövlətçiliyin möhkəmləndirilməsi üçün birgə əməkdaşlıqda səylərini artırmağa çağırıb.

Daha sonra Milli Məclisdə təmsil olunan siyasi partiyaların nümayəndələri - Yeni Azərbaycan Partiyası icra katibinin müavini, Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov, Böyük Quruluş Partiyasının sədri, Milli Məclisin Mədəniyyət komitəsinin sədr müavini Fazil Mustafa, Ana Vətən Partiyasının sədri, Milli Məclisin İntizam komissiyasının sədrinin müavini Fəzail Ağamalı, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini Qüdrət Həsənquliyev, Vətəndaş Həmrəyliyi Partiyasının sədri, deputat Sabir Rüstəmxanlı, Vətəndaş Birliyi Partiyasının sədri, Milli Məclisin Aqrar siyasət komitəsinin sədr müavini Sabir Hacıyev, Vəhdət Partiyasının sədri, Milli Məclisin İnsan hüquqları komitəsinin sədr müavini Tahir Kərimli, Azərbaycan Demokratik Maarifçilik Partiyasının sədri, Milli Məclisin Regional məsələlər komitəsinin sədr müavini Elşən Musayev, Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri, Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədr müavini Asim Mollazadə çıxış edərək son dövrlər Azərbaycanda həyata keçirilən iqtisadi və siyasi islahatların uğurlarından, çoxpartiyalı siyasi sistemin bərqərar olmasının üstünlüklərindən, iqtidarla siyasi partiyaların səmərəli əməkdaşlığı nəticəsində milli və siyasi həmrəyliyə nail olunmasından və bu zəmin üzərində pandemiyaya qarşı səmərəli mübarizə aparılması təcrübəsindən danışmışlar. Sonda tədbirlə bağlı bəyanat qəbul edilmişdir.

***Qabil HÜSEYNLİ,***
***professor***

11 İyul Dünya Əhali Günüdür




# Bəşər övladının yaşamaq haqqı

## Son 50 il ərzində Azərbaycan əhalisinin sayı iki dəfə artıb

Yer planetinin əşrəfi sayılan insan normal yaşamaq haqqına malikdir. Əlbəttə, heç də dünyanın hər yerində insanların nə dili, nə dini, nə də yaşayış səviyyəsi eyni ola bilməz. Ona görə də müxtəlif qütblərin təbiəti, eləcə də ictimai mühiti orada yaşayan insanların xarakter xüsusiyyətlərinin formalaşmasında mühüm məsələlərdəndir.

İbtidai icma quruluşundan bugünədək insan övladı müxtəlif ictimai-iqtisadi formasiyalarda uzun, əzablı və keşməkeşli ömür yaşamağa və bunun üçün mübarizələr aparmağa məhkum olub. Zaman dəyişdikcə, ictimai şüur yeniləşdikcə, insana münasibətdə də korrektələr baş verib: qul-quldar, ağa-nökər, bəy-xan-rəiyyət kimi sinfi təbəqələşməyə məruz qalıb. Nəhayət, bir sıra tarixi, əlamətdar günlər təsis edildikdən sonra insan övladının, daha doğrusu, dünya əhalisinin də belə bir günə ehtiyacı diqqət çəkib. Bu tarixi günü isə 1989-cu ildə BMT-nin əhali problemlərinin həllinə yardım göstərən, ən iri beynəlxalq təşkilat olan Əhali Fondu təsis edib. İlk dəfə isə 1990-cı ildə 90-dan artıq ölkədə qeyd olunub. Məqsəd ailə planlamasının əhəmiyyəti, gender bərabərliyi, yoxsulluq, qadın sağlamlığı və insan hüquqları kimi dünya əhalisi ilə bağlı müxtəlif məsələlər barədə məlumatlılığı artırmaq, onların problemlərinə xüsusi diqqət yetirmək və ümumi inkişafa nail olmaqdır.

### XX əsrdə dünya əhalisi 1,5 milyard nəfərədək artıb

Son məlumatlara əsasən, dünya əhalisinin sayı 8 milyard nəfərə yaxındır. İlk üçlükdə Çin, Hindistan və ABŞ qərarlaşıb. Coğrafi, siyasi və humanitar məsələlərdə Avropa ilə Asiyanı qovuşduran, əhalisinin sayı 10 milyonu ötən Azərbaycan bu sırada 89-cu yerdədir.

Dünya Əhali günü 2005-ci ildən etibarən Azərbaycanda da geniş şəkildə qeyd olunmağa başlanıb. MDB məkanında ilk dəfə olaraq ölkəmizdə demoqrafiya sahəsində dövlət strategiyasını müəyyən edən "Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyası" təsdiq edilib. Hər il bir deviz altında qeyd edilən bu günün tarixi əhəmiyyəti az deyil. Dünya əhalisi haqqında il ərzində müxtəlif forma və məzmunlarda məlumatlar yayılsa da, ümumi statistik rəqəmlər məhz həmin gün diqqəti cəlb edir.

Bunun üçün dünyanın ayrı-ayrı qütb və qitələrində, regionlarda və ölkələrdə tədbirlər keçirilir. Ölkəmizə gəlincə, Prezident İlham Əliyevin 25 iyul 2006-cı il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasının Dövlət Miqrasiya Proqramı" təsdiq edilib. Dövlət başçısının 19 mart 2007-ci il tarixli fərmanına əsasən, Dövlət Miqrasiya Xidməti yaradılıb. 2006-cı il dekabrın 28-də İnsan Hüquqlarının Müdafiəsi üzrə Milli Fəaliyyət Planı təsdiq edilib.

XX əsrdə dünya əhalisi 1,5 milyard nəfərədək artıb. Lakin ayrı-ayrı ölkələrdə və regionlarda bu artım qeyri-bərabər olub. İnkişaf etmiş ölkələrdə artım sürəti son iki onillikdə sabit qalıb. Keçid iqtisadiyyatına malik ölkələrdə isə artım sürəti kəskin şəkildə azalıb. Rusiyada və bir sıra MDB, Baltikyanı ölkələrdə, həmçinin Şərqi Avropada əhalinin təbii azalması prosesi müşahidə olunub. Əhalinin artım sürətinin azalması inkişaf etmiş, xüsusən Şərqi Asiya, Cənub-şərqi Asiya və Latın Amerikası ölkələri hesabına baş verib.

### Dünya əhalisinin orta ömür müddəti nə qədərdir

Yaş strukturunun 2 əsas tipi mövcuddur. 1-ci tip əksər inkişaf edən ölkələr üçün səciyyəvidir: uşaqların çox, yaşlı insanların (65 yaşdan yuxarı) isə az olması; 2-ci tip isə inkişaf etmiş və keçid iqtisadiyyatına malik ölkələr üçün səciyyəvidir. Burada isə tam əksinə - uşaqların azlığı, yaşlı insanların çoxluğu ilə səciyyələnir. Uşaqların çoxluğu ona gətirib çıxarır ki, bu ölkələrdə əmək qabiliyyətli insanların sayı azdır. Ona görə də məktəblərin tikintisində, iş yerlərinin yaradılmasında çətinliklər yaranır.

BMT-nin tələblərinə görə, ölkənin əhalisi o zaman qoca sayılır ki, 60 və daha yaşlı insanların sayı əhalinin ümumi sayına nisbətən 12 faiz və daha çox təşkil edir. Bu hal cəmiyyətin iqtisadi yükünü artırır.



### Nikah və boşanmalar

Dünya xalqlarının əksəriyyəti hazırda monoqam ailələrlə yaşayır. Lakin bir sıra Asiya və Afrika ölkələrində poliqiniya (çoxarvadlılıq), Cənubi Hindistan, Nepal, Mərkəzi Amerika xalqlarında poliandriya (çoxərlilik) yayılıb. Tropik Afrika ölkələrində 100 evli kişiyə 150 ərli qadın düşür. Kənd yerlərində 15 və yuxarı yaşda olan 3 kişidən biri poliqin nikaha, yəni iki və ya üç arvada malikdir. Poliqin nikahlar ərəb ölkələrində də yayılıb.

Ümumiyyətlə, dünya üzrə kişilər, adətən 25-29, qadınlar isə 20-24 yaşlarında nikaha daxil olurlar. Ölkələr üzrə nikah yaşı qanunun tələblərindən daha çox, milli adət-ənənələrlə müəyyən edilir. Qanunlar bir çox hallarda bu adətlər nəzərə alınmaqla qəbul olunur. Daha isti qurşaqlarda erkən nikahlar geniş yayılır. Bu baxımdan Cənubi Asiya ölkələri seçilir. Bu nəslin nikaha girən nümayəndələrinin yarıdan çoxunun yaşı Avropada kişilər üçün 25, qadınlar üçünsə 22-dir. Dünya üzrə dul qadınların sayı dul kişilərin sayından təxminən iki dəfə çoxdur. Bu bir tərəfdən qadınların daha uzunömürlülüyünün, digər tərəfdən isə bir sıra inkişaf etməkdə olan ölkələrdə onların yenidən ailə qurmasına qarşı pis münasibətin nəticəsidir. Müşahidələr onu deməyə əsas verir ki, İkinci Dünya müharibəsindən sonra əksər ölkələrdə boşanmaların sayı kəskin surətdə artıb və bu proses hələ də davam edir. Güman edilir ki, boşanmaların artması doğumun azalması və övladsız ailələrin çoxluğu ilə əlaqədardır.

***M.NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# Biz birlikdə güclüyük!

## Hikmət HACIYEV: "Azərbaycan Prezidentinin təşəbbüsü qlobal həmrəyliyə öz töhfəsini verəcək"

**"Rəqəmlərdə müəyyən sabitləşmə özünü göstərir, artıq yoluxanlarla sağalanlar arasında cüzi fərq nisbəti var. Bu da hər birimizi sevindirir. Lakin bu, bizi tam şəkildə qane edə bilməz".**

AZƏRTAC xəbər verir ki, bunu Nazirlər Kabineti yanında Operativ Qərargahın iyulun 10-da keçirilən brifinqində Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib.

"Koronavirusa qarşı mübarizəmiz birgə səylərlə davam edir. Başa düşürük ki, isti yay günlərində vətəndaşlarımız, xüsusilə azyaşlı uşaqları olan ailələr üçün karantin şəraitində qalmaq çox ağırdır. Lakin biz birlikdə bu virusa qarşı mübarizə aparırıq. Vətəndaşlarımıza göstərdikləri anlayışa görə minnətdarlığımızı bildiririk. Vətəndaşlarımızın məsuliyyətli davranması, dövlətimizlə birgə olması sayəsində biz vəziyyətin sabitləşməsinə nail olmuşuq", - deyə Prezidentin köməkçisi vurğulayıb.

***

"Karantin rejiminin tətbiq olunması ilə əlaqədar dövlətimizin bütün resursları səfərbər olunub. Tibbi heyət lazımi istiqamətdə fəaliyyətini davam etdirir. Hüquq-mühafizə orqanları, dövlət qulluqçuları aidiyyəti sahələr üzrə koronavirusla mübarizə istiqamətində fəaliyyətlərini davam etdirirlər. Bütün bunların əsas məqsədi dövlət başçısının tapşırıqlarına müvafiq olaraq vətəndaşlarımızın sağlamlıqlarının və təhlükəsizliyinin qorunmasıdır".

Bu fikirləri də Nazirlər Kabineti yanında Operativ Qərargahın iyulun 10-da keçirilən brifinqində Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib.

"Ümumiyyətlə, dünyadakı epidemioloji vəziyyət heç də ürəkaçan deyil. Artıq dünya üzrə 12 milyondan çox insanın virusa yoluxması qeydə alınıb, ölüm halları da artmaqda davam edir. Hazırda ən çox yayılma regionu Latın Amerikası müəyyən edilib. Bununla bərabər, Azərbaycanın yerləşdiyi regiona yaxın olan Yaxın Şərq regionunda da artma tendensiyaları özünü büruzə verməkdədir. Azərbaycan koronavirusla mübarizədə qlobal müstəvidə də səylərini davam etdirir. Bu gün Prezident İlham Əliyevin təşəbbüsü ilə çağırılan BMT Baş Assambleyasının koronavirusla mübarizə ilə bağlı xüsusi sessiyası öz işinə başlayır", - deyə Prezidentin köməkçisi vurğulayıb.

***

"Hesab edirik ki, Azərbaycan Prezidentinin BMT Baş Assambleyasının koronavirusla bağlı xüsusi sessiyasının çağırılması təşəbbüsü dünya ölkələrinin səylərinin səfərbər edilməsinə və qlobal həmrəyliyə öz töhfəsini verəcək", - deyən Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Azərbaycanın xarici ölkələrlə əməkdaşlığından danışan Prezidentin köməkçisi deyib: "Məhz bu tərəfdaşlığın nəticəsidir ki, fikir və təcrübə mübadilələrinin aparılması üçün bir sıra ölkələrdən, o cümlədən Türkiyədən, Rusiyadan Azərbaycana müxtəlif həkim briqadaları gəliblər. Həkimlər və tibbi heyət, eyni zamanda epidemioloji siyasətin həyata keçirilməsinə məsul mütəxəssislər də ölkəmizə təşrif buyurublar və onlar azərbaycanlı həmkarları və Operativ Qərargahla fikir mübadiləsi aparırlar. Qeyd edilməlidir ki, Azərbaycan tərəfinin bu günə qədər həyata keçirdiyi bütün tədbirlər xaricdən olan mütəxəssislər tərəfindən çox yüksək qiymətləndirilir".

***

"Xaricdə olan vətəndaşlarımızın təxliyəsi ilə əlaqədar tədbirlər davam etdirilir. Çox müsbət haldır ki, digər ölkələrlə qarşılıqlı razılıq əsasında müntəzəm xarakter daşıyan xüsusi



çarter reyslərinin həyata keçirilməsinə dair qərar verilib", - deyən Hikmət Hacıyev bildirib.

Prezidentin köməkçisi deyib: "Bu gün İstanbul-Bakı istiqaməti üzrə həftəlik əsasda Azərbaycan Hava Yolları tərəfindən 4, Türk Hava Yolları tərəfindən 4 dəfə olmaqla reyslər həyata keçirilir. Təbii ki, burada da bəlli şərtlər var. Artıq Avropa istiqamətində də uçuş reyslərimiz açılır. Belə ki, Azərbaycan Hava Yollarının Bakı-London istiqamətində uçuşlarla bağlı Britaniyanın müvafiq strukturları ilə apardığı danışıqlar yekunlaşıb. Yaxın vaxtlarda həftədə bir dəfə olmaqla Bakı-London-Bakı istiqaməti üzrə reyslər həyata keçiriləcək. Həmçinin Avropa İttifaqının üzv ölkəsi olan Almaniya ilə Azərbaycan arasında Berlin-Bakı istiqamətində uçuş reyslərinin həyata keçirilməsi nəzərdə tutulur. Bu xüsusda qonşu ölkələrlə, o cümlədən Rusiyanın aidiyyəti strukturları ilə danışıqlar aparılır".

Azərbaycan-Rusiya sərhədi boyunca tam sabitliyin hökm sürdüyünü söyləyən Hikmət Hacıyev qeyd edib ki, iyulun 6-12-də Azərbaycan-Rusiya sərhədi boyunca 250-dən çox vətəndaşımızın ölkəmizə keçməsi təmin olunub.

"Bu həftə ərzində Moskva-Bakı, Kiyev-Bakı, Ər-Riyad-Bakı, Dubay-Bakı istiqamətləri üzrə reyslər həyata keçirilib. Qarşıdakı həftə ərzində isə Rusiya-Azərbaycan sərhədində 250 vətəndaşımızın, həmçinin İran-Azərbaycan quru sərhədi, Türkiyə-Gürcüstan-Azərbaycan quru sərhədi boyunca digər ölkələrdə olan vətəndaşlarımızın öz şəxsi avtomobilləri, digər şəxsi nəqliyyat vasitələri ilə ölkəmizə gəlməsi nəzərdə tutulub. Bununla yanaşı, Gürcüstanda olan təxminən 200 vətəndaşımızın da ölkəmizə gətirilməsi nəzərdə tutulub. Bu vətəndaşlarımızın testdən keçmələri və 14 günlük karantin rejiminə əməl etmələri vacib şərtlərdən biridir. Həftə ərzində Budapeşt-Bakı, Daşkənd-Bakı, Moskva-Bakı, Yekaterinburq-Bakı və Doha-Bakı istiqaməti üzrə Azərbaycan vətəndaşlarının ölkəmizə gətirilməsi nəzərdə tutulub", - deyə Prezidentin köməkçisi vurğulayıb.

Hikmət Hacıyev qeyd edib ki, Azərbaycanın xaricdəki diplomatik nümayəndəliklərində və səfirliklərdə çalışan vətəndaşlarımız arasında da yoluxma halları müəyyən olunub. Xüsusilə səfirliklərin əməkdaşları ilə yanaşı, onların ailə üzvləri arasında da yoluxma halları var. Meksikadakı, Moldovadakı və digər ölkələrdəki səfirliklərimizin əməkdaşları arasında yoluxma halları var. Buna baxmayaraq Azərbaycanın xaricdəki diplomatik nümayəndəlikləri öz fəaliyyətlərini davam etdirirlər.

Cəzaçəkmə müəssisələrindəki epidemioloji vəziyyət barədə məlumat verən Prezidentin köməkçisi qeyd edib ki, 12 saylı cəzaçəkmə müəssisəsində 11 məhkumda, 14 saylı cəzaçəkmə müəssisəsində 5 məhkumda, 4 saylı cəzaçəkmə müəssisəsində 2 məhkumda testlərin nəticəsi pozitiv olub. Həmçinin Penitensiar Xidmətin əməkdaşları arasında da yoluxma halları müəyyən olunur ki, onlar da dərhal nəzarətə götürülür.

"Sosial mediada yayılan informasiyalar təhlil edilir, vətəndaşlarımız tərəfindən qaldırılan problemlər öyrənilir. Həmçinin konstruktiv tənqidlər də qəbul edilir və nəzarətə götürülür. Hər hansı şikayət, vətəndaşımızı narahat edən məsələ varsa, müvafiq qurumlar tərəfindən dərhal zəruri tədbirlər görülür. Həmişə olduğu kimi, bu məsələdə də dövlətimizlə vətəndaşlarımız arasında konstruktiv dialoq mövcuddur. Əsas məqsəd mövcud vəziyyətdən qısa müddət ərzində çıxış yolu tapmaqdır", - deyə Hikmət Hacıyev vurğulayıb.

## Yaqut QARAYEVA: "Yoluxanlarla sağalanların sayı arasındakı kəskin fərq azalmağa doğru gedir"



"Bugünkü statistikaya görə, yoluxanların sayı ilə sağalanların sayının eyniləşdiyini demək olar. Yoluxanlarla sağalanların sayı arasındakı kəskin fərq azalmağa doğru gedir. Bu onu deməyə imkan verir ki, bəlli bir sabitləşməyə nail ola bilmişik".

AZƏRTAC xəbər verir ki, bu fikirləri iyulun 10-da Nazirlər Kabineti yanında Operativ Qərargahın təşkil etdiyi mətbuat konfransında Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) Xəstəliklərin profilaktikası və kontrolu şöbəsinin müdiri Yaqut Qarayeva deyib.

Şöbə müdiri bildirib ki, bu sabitləşməyə vətəndaşların qaydalara riayət etməsi ilə nail olunub: "Cəmiyyətimizdə xəstəliyə qarşı mübarizə özünü daha yaxşı göstərir. Vətəndaşlar daha ciddi şəkildə qaydalara riayət edirlər. Bunu marketlərdə, ictimai nəqliyyatda da müşahidə etmək olar. Xəstəliyin ağırlaşmasına inanan vətəndaşların sayı daha çoxdur. Hər birimiz qaydalara riayət edərək xəstəliyə qalib gələ bilərik".

## Azərbaycanda koronavirusa daha 526 nəfər yoluxub, 502 nəfər sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 526 yoluxma faktı qeydə alınıb, 502 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 8 nəfər vəfat edib.




Hazırkı dövrədək ölkəmizdə 22 min 990 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 14 min 93 nəfər müalicə olunaraq sağalıb, 292 nəfər vəfat edib. Aktiv xəstə sayı 8605 nəfərdir.

Ötən müddət ərzində 552 min 311 test aparılıb. Dünənki test sayı isə 7576-dır.

## Ölkədəki epidemioloji vəziyyətə uyğun addımlar atılır

*Əvvəli 1-ci səh.*

Qlobal böhrandan minimum itkilərlə çıxmaq üçün bütün qüvvələr COVID-19-a qarşı səfərbər edilib. Mərhələli şəkildə həyata keçirilən təsirli tədbirlər sayəsində demək olar ki, yeni növ koronavirus ölkəmizdə nəzarət altındadır. Mütəmadi olaraq epidemioloji vəziyyət dəyərləndirilir, uyğun addımlar atılır.

Buna baxmayaraq hələ də yoluxma sayı yüksəkdir. Təəssüf ki, koronavirus infeksiyasının ilkin mərhələsində ölkəmizdə əldə olunan müsbət dinamika, pandemiyanın şərtlərinə əməl etməyən, virusun yox olduğunu sanan bəzi məsuliyyətsiz şəxslər sayəsində vəziyyət mənfiyə doğru gedir. Demək olar ki, son müddətdə gündəlik yoluxma sayının 500-dən aşağı düşməməsi də bunun göstəricisidir. Bu isə bütün sahələrə mənfi təsir edir, xüsusilə də səhiyyə sisteminin yüklənməsinə, tibb işçilərimizin əziyyətinin birə on qat artmasına səbəb olur, onların da həyatına təhlükə yaradır.

### Həkimlərin səhhəti Birinci vitse-prezident Mehriban Əliyevanın diqqət mərkəzindədir

Dünyada koronavirusa yoluxanların 24 faizə qədərini tibb işçiləri təşkil edir. Təəssüfləndirici haldır ki, Azərbaycanda da virusa yoluxan tibb işçiləri var. Təkcə Azərbaycan Tibb Universitetinin pandemiyaya qarşı mübarizə aparan iki klinikasında 57 tibb işçisi koronavirusa yoluxub.

İlk gündən etibarən Azərbaycanda virusdan sağalanların sayının yüksək olması, ağır xəstələrin həyata qaytarılması, virusa yoluxan hər bir vətəndaşımız uğrunda gecə-gündüz mücadilə aparılması fədakar tibb işçilərimizin şücaətidir. Məhz onlar sayəsində 10 mindən çox vətəndaşımız təhlükəli bəladan qurtularaq doğmalarının, əzizlərinin yanına qayıdıb. Tibb işçilərimiz, həkimlərimiz yarım ildir ailələrindən uzaqda, yorğunluq, yuxusuzluq bilmədən, yoluxma təhlükəsinə baxmayaraq, sözün əsl mənasında, ölüm-dirim savaşı aparırlar.

Həkimlərimizin virusa qarşı mübarizəsi, vətəndaşlarımızın sağalması uğrunda öz canlarını belə heçə sayaraq fədakarlıq etmələri hər zaman dövlətimiz tərəfindən yüksək qiymətləndirilir, onların bu müstəsna fəaliyyəti lazımınca dəyərləndirilir.

Xüsusi rejimli xəstəxanalarda pandemiya ilə mübarizə aparan bütün həkimlərin səhhəti Birinci vitse-prezident Mehriban Əliyevanın tapşırığına əsasən, daim diqqət mərkəzində saxlanılır, eləcə də virusa yoluxmuş tibb işçilərinin müalicəsi ilə bağlı bütün lazımi tədbirlər həyata keçirilir.



Amma koronavirusla ön cəbhədə vuruşan həkimlərimizin səhhəti təkcə dövlət rəhbərliyimiz tərəfindən düşünülməməlidir. Eyni zamanda hər bir vətəndaşımız pandemiya şərtlərinə əməl edərək, onların yükünün ağırlaşmamasına, həyatlarının təhlükəyə düşməməsinə rəvac verməlidir.

Həkimlərimiz bizi qorumaq üçün əllərindən gələni edirlər, biz də sosial məsafə saxlayaraq, maska taxaraq, gigiyena şərtlərinə əməl edərək onlara bu işdə dəstək olmalıyıq, onları qorumalıyıq...

### Bəzi vətəndaşlar stasionar postların yığışdırılmasını karantin rejiminin başa çatması kimi başa düşürlər

Dünya təcrübəsinə əsasən demək olar ki, koronavirusun yayılma arealını azaltmaq üçün görülən effektiv tədbirlərdən biri də karantin rejiminin tətbiqidir. Buna görə də yoluxma faizi yüksək olan şəhər və rayonlarımızda sərt karantin rejimi tətbiq edilib. Qoyulan tələblərin əməl edilməsinə ciddi nəzarət var.

Ötən gündən etibarən Bakıda xüsusi karantin rejimi ilə əlaqədar qurulmuş mobil polis postlarının sayında artım müşahidə olunur. Belə ki, paytaxtın əsas küçə və prospektlərində Yol Patrul Xidməti əməkdaşları postlar quraraq yoxlamalar aparırlar.

Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis polkovniki Vaqif Əsədov bildirib ki, xüsusi karantin rejimi ilə əlaqədar Bakı şəhərini əhatə edən bütün küçə və prospektlər polis əməkdaşları tərəfindən tam nəzarətə götürülüb: "Xidmətdə müvəqqəti mobil postların təşkil edilməsi ilə bağlı göstəriş var. Hazırda bu cür xidmət aparılır. Sərt karantin rejiminə nəzarəti əməkdaşlarımız bir neçə üsulla həyata keçirir. Mobil postlar yaratmaqla və yaxud reydlər təşkil etməklə hərəkətdə olan avtomobillər və sərnişinlər yoxlanılır. Evdən çıxmasına icazə verilməyən şəxslər postdan buraxılmır".

V.Əsədov vətəndaşlara müraciət edərək zərurət yaranmadıqca onları şəxsi avtomobillərindən istifadə etməməyə çağırıb: "Bəzi vətəndaşlar stasionar postların yığışdırılmasını karantin rejiminin başa çatması kimi başa düşürlər. Vətəndaşlara bildiririk ki, sərt karantin rejimi davam edir. Vətəndaşlar icazələrinin olub-olmadığını yoxladıqdan sonra evdən çıxmalıdırlar. Qoruyucu vasitələrdən istifadə etmənin vacibliyini bir daha diqqətə çatdırırıq".

### Qaydaları pozanlar məsuliyyətə cəlb olunurlar

Koronavirus (COVID-19) infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə Bakı, Cəlilabad, Gəncə, Lənkəran, Masallı, Mingəçevir, Sumqayıt, Yevlax şəhərlərində, Abşeron, Bərdə, Xaçmaz, Goranboy, Göygöl, Samux, Siyəzən və Şəki rayonları ərazisində tətbiq edilmiş sərtləşdirilmiş xüsusi karantin rejiminin pozulmasına görə iyulun 9-u və 10-u ərzində nəqliyyat vasitələri ilə hərəkətdə olan 1287, sərnişindaşımada istifadə olunan taksi və avtobuslarda tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə edilmədiyinə görə 151, eyni əməllərin il ərzində təkrar törədilməsinə görə isə 2 nəfər olmaqla, ümumilikdə, 1440 hərəkət iştirakçısı inzibati məsuliyyətə cəlb edilib.

Baş Dövlət Yol Polisi İdarəsindən məlumat verilib ki, qeyd olunan müddət ərzində, ümumilikdə, 595 nəqliyyat vasitəsinin müvafiq icazə olmadan postlardan keçmək cəhdinin qarşısı alınıb.

### Bu savaşdan qalib ayrılmaq mümkündür

Koronavirusu təhlükəli edən onun sürətli yoluxma xüsusiyyətidir. Buna görə də A-dan Z-yə bütün şəxslərdən maksimum diqqətli olmaq tələb olunur. Hazırda biz virusla müharibə şəraitində yaşayırıq. Bu savaşda qalib gəlmək isə hər bir vətəndaşın şəxsi məsuliyyət göstərməsinə bağlıdır.

Təbii ki, cəmiyyətimizin böyük əksəriyyəti məsuliyyət, nizam-intizam göstərir. Amma karantin günlərində qayda pozanlara da rast gəlirik ki, bu hallar da tamamilə aradan qaldırılmalıdır. Çünki bu, milli təhlükəsizlik, xalqımızın var olması ilə bağlı vacib məsələdir.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# İnsan amilini yüksək tutan siyasət

*Əvvəli 1-ci səh.*

### Heç bir ölkə bu pandemiyaya hazır deyildi...

Artıq modul tipli 5 xəstəxana fəaliyyətdədir. Onların qısa zamanda tikilməsi bir daha onu göstərir ki, Azərbaycan bütün hallarda, hətta ən ağır şəraitdə belə lazımi addımları ata bilər.

Təbii ki, dövlət başçısının da vurğuladığı kimi, heç bir ölkə bu pandemiyaya hazır deyildi. Respublikada mövcud çarpayıların sayı adi rejimə hesablanmışdı. Ona görə modul tipli xəstəxanaların tikintisi zərurət idi. Onlardan ikisi Bakıda, biri Sumqayıtda, biri Gəncədə, biri Abşeron rayonunda xəstələri artıq qəbul edir. Daha 5 modul tipli xəstəxananın isə tikintisi gedir.

On xəstəxananın tikintisi ilə bağlı qərar aprel ayında verilmişdi ki, o vaxtlar xəstəlik hələ geniş yayılmamışdı. Amma buna baxmayaraq qabaqlayıcı tədbirlərin görülməsi zəruri idi. Ona görə də Azərbaycan dövləti öz vətəndaşlarının sağlamlığını qorumaq və pandemiyadan az zərərlə çıxarmaq üçün təcili təxirəsalınmaz tədbirlər görməyə başladı. Bu, sonradan dünya ictimaiyyəti, xüsusilə də Ümumdünya Səhiyyə Təşkilatının sədri və nümayəndələri tərəfindən yüksək qiymətləndirildi və digərlərinə nümunə göstərildi: "Hazırda ölkəmizin 45 xəstəxanasında koronavirus xəstələri müalicə alırlar. Onu da bildirməliyəm ki, bu xəstəxanaların 36-sı mənim sərəncamımla son müddət ərzində inşa edilibdir. Bu gün bizim hələ ki, kifayət qədər boş çarpayılarımız var. Ancaq biz hər bir vəziyyətə hazır olmalıyıq.

Bu il istifadəyə verilmiş "Yeni klinika"da hazırda 350 xəstə müalicə alır. Biz qısa müddət ərzində orada çarpayıların sayını 700-750-yə çatdıracağıq. Ona görə hesablamaq çətin deyil ki, əgər buna ehtiyac yaranarsa, biz qısa müddət ərzində 5 mindən çox xəstəni yerləşdirə biləcəyik - yəni xəstəxanalarda 2100, modul tipli 15 xəstəxanada 3 min, "Yeni klinika"da əlavə 350..."

Azərbaycan Prezidenti bugünkü vəziyyətə də aydınlıq gətirərək bildirdi ki, qabaqlayıcı tədbirlərin görülməsi ilə vəziyyət nəzarətdə saxlanılır, baxmayaraq ki, hazırda gündə təqribən 500 yeni xəstə qeydə alınır, yoluxmanın tempi yüksəkdir.

Əlbəttə, dövlət pandemiyanın ilk günlərindən çox önəmli addımlar atdı. Fevral ayında Azərbaycanda cəmi altı laboratoriya olsa da, bu gün onların sayı 29-a çatıb və əlavə olaraq 15-i isə sifariş edilib. Onların sayının 44-ə çatması imkan verəcək ki, daha çox test aparılsın. TƏBİB-in verdiyi məlumatlara əsasən, indiyədək 500 mindən çox test aparılıb. Azərbaycan dünyada adambaşına düşən testlərin sayına görə təqribən 40-cı yerdədir.

45 xəstəxananın əksəriyyəti bölgələrdə yerləşir. Bu xəstəxanalar regional inkişaf proqramı çərçivəsində tikilib və bu gün ən yüksək standartlara cavab verir.

Dövlət başçısının verdiyi məlumat bir daha onu təsdiqləyir ki, ölkədə pandemiya ilə mübarizənin necə, hansı formada aparılması nəzarət altındadır. Azərbaycan Prezidenti qeyd etdi ki, hər bir məsələ müqayisə tələb edir, bizimlə əhalisi eyni olan bəzi inkişaf etmiş ölkələrdə yoluxanların sayı 60-70 min, ölənlərin sayı 10 min nəfərdir: "O ölkələrin səhiyyə sistemi bir çox hallarda nümunə kimi göstərilirdi. Bu, onu göstərir ki, heç bir ölkə tam şəkildə özünü sığortalanmış hesab edə bilməz və bu xəstəlik sərhəd tanımır. Biz bu işi kortəbii aparmırıq, ölçülüb-biçilmiş addımlar atırıq. Bu addımların əsas məqsədi insanlarımızı, onların sağlamlığını, həyatını bu xəstəlikdən qorumaqdır. Pandemiya dövründə bütün imkanlarımız səfərbər olunmalıdır ki, biz bu vəziyyətdən az itkilərlə çıxa bilək".

COVID-19 pandemiyası başladığı gündən Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatı ilə sıx əməkdaşlıq edir. Bu beynəlxalq səhiyyə qurumu Azərbaycanı koronavirusla mübarizədə nümunəvi ölkə adlandırıb.

### Şəhid ailələri üçün bu il daha 1500 mənzil istifadəyə veriləcək

Prezident koronavirus pandemiyasının ölkəmizin sosial-iqtisadi sahələrinə təsiri ilə bağlı sualı cavablandırarkən qeyd etdi ki, dünyanın aparıcı maliyyə qurumları indi ortaya müxtəlif proqnozlar qoyurlar - dünya iqtisadiyyatı nə qədər tənəzzülə uğrayacaq, avrozonada işsizliklə bağlı vəziyyət necə olacaq. Təbii ki, bu pandemiya ilə əlaqədar yaranan problemlər dünya iqtisadiyyatına böyük zərbə vurdu. Azərbaycan da dünya iqtisadiyyatının bir parçası olduğu üçün bu iqtisadi zərbədən yayına bilməz. Lakin Azərbaycan Prezidenti həmişəki kimi, bu dəfə də pozitiv əhvali-ruhiyyə ilə bütün problemlərin həllinin mümkünlüyünü dilə gətirdi: "Azərbaycan iqtisadiyyatı beş ayın yekunlarına görə 1,7 faiz tənəzzülə uğradı. Amma buna baxmayaraq biz heç bir sosial layihəni təxirə salmadıq, ixtisar etmədik. Əksinə, bu il büdcə xətti ilə reallaşan sosial layihələr keçən ilə nisbətdə daha təsirlidir. Misal üçün, ən həssas təbəqəyə aid olan layihələr bu il daha böyük həcmdə icra edilir. Məsələn, bu il məcburi köçkünlər üçün rekord sayda binalar tikiləcək, 7 mindən çox köçkün ailəsi yeni mənzillərlə təmin ediləcəkdir. Şəhid ailələri üçün bu il rekord sayda - 1500 mənzil istifadəyə veriləcək, adətən, ildə təqribən 700-800 mənzil təqdim edilir. İyirmi il orduda qüsursuz xidmət etmiş hərbçilərə bu il 400-dən çox mənzilin verilməsi nəzərdə tutulur. Biz ünvanlı sosial yardım alanların sayını artırdıq. Bu rəqəm təqribən 85 minə yaxınlaşır - 85 min ailə, yəni 300 mindən çox insan. Digər önəmli sosial layihələr icra edildi. Bildiyiniz kimi, işsizləri, o cümlədən qeyri-formal sahədə işləyənləri dəstəkləmək, pandemiyadan zərər çəkmiş sahələrdə çalışan insanlara maddi yardım göstərmək və digər məqsədlər üçün təqribən 3 milyard manat vəsait nəzərdə tutulur və o vəsaitin bir hissəsi artıq xərclənib".

### Azərbaycan pandemiya ilə mübarizədə 30-dan çox ölkəyə humanitar və maliyyə yardımı göstərib

Dövlət başçısı iqtisadi sahədə bir məsələyə də toxunaraq bildirdi ki, kölgə iqtisadiyyatına qarşı çox ciddi mübarizə aparılır və bu, artıq özünü göstərir. Belə ki, bu il yüz mindən çox əmək müqaviləsi imzalanıb. Əslində, bu, qeyri-formal məşğulluğun ağardılması deməkdir. Bu islahatlar eyni zamanda büdcə gəlirlərində də özünü göstərdi: "Baxın, ticarət və ictimai iaşə obyektlərinin böyük əksəriyyəti bu müddət ərzində bağlı idi. Turizm sıfır səviyyəsindədir. Halbuki biz hesab edirdik ki, bu il ölkəyə təqribən 3,5 milyon turist gələcək. Çünki keçən il 3 milyon rekord hədd idi. Bu il üçün belə planlaşdırırdıq. Bu da ölkə iqtisadiyyatına minimum 2 milyard dollar valyutanın gəlməsi demək idi. Biz bundan da məhrum olduq. Ancaq altı ay ərzində vergi və gömrük orqanları büdcəyə proqnozdan əlavə 423 milyon manat cəlb edə biliblər. Bunun 98 milyon manatını gömrük, qalan böyük hissəsini vergi orqanları təmin edib. Nəyin hesabına? Məhz şəffaflığın, dürüstlüyün hesabına, kölgə iqtisadiyyatının daralmasının hesabına".

Azərbaycan pandemiya ilə mübarizədə 30-dan çox ölkəyə humanitar və maliyyə yardımı göstərib. O cümlədən ÜST-ə 10 milyon dollar ianə verən Azərbaycan ikinci ianəni isə pandemiyadan ən çox əziyyət çəkən və ən ağır vəziyyətdə olan Qoşulmama Hərəkatına üzv ölkələrə ayırıb.

Bakıda keçirilən iki zirvə görüşündə dövlət başçısı bəyan etdi ki, biz sədr kimi fəal olacağıq, Qoşulmama Hərəkatına üzv ölkələrin maraqlarını dünya miqyasında ədalət və beynəlxalq hüquq müstəvisində müdafiə edəcəyik. Ona görə bu ağır dövrdə zirvə görüşlərinin keçirilməsinə də böyük ehtiyac var idi. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə görüşü yeni - onlayn formatda keçirildi. Sonra digər təşkilatlar da buna oxşar addımlar atdılar.

Prezident Azərbaycanın təşəbbüslərindən olan BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi ilə bağlı fikirlərini də bildirdi. Bu təşəbbüs də dünya miqyasında yüksək qiymətləndirildi: 130-dan çox ölkə tərəfindən buna dəstək verildi.

### Diplomatiya meydanında uduzan Ermənistan dilənməkdə davam edir

Azərbaycanın BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi ilə bağlı təşəbbüsünün əleyhinə çıxan yeganə ölkə Ermənistan oldu. İşğalçı, təcavüzkar, faşizmi dəstəkləyən Ermənistanda hökm sürən və dövlət tərəfindən təbliğ edilən Azərbaycanafobiya imkan vermir ki, ölkəmizin hər hansı bir addımını qəbul etsinlər: "Çünki türk dünyasında biz bunu keçirdik, 120 ölkəni əhatə edən Qoşulmama Hərəkatı çərçivəsində keçirdik. İndi biz dünya miqyasında bunu keçirmək istəyirik ki, burada vahid bir yanaşma tətbiq olunsun, ölkələr özlərinə qapanmasın, inkişaf etmiş ölkələr ağır vəziyyətdə olan ölkələrə kömək göstərsinlər. Hətta ölkələr BMT Baş Assambleyasında vahid bir fikrə gəlməsələr belə, biz bu məsələni qaldırmalıyıq. Biz dünya birliyinin məsuliyyətli ölkəsi kimi bu məsələni qaldırırıq. Ona görə Ermənistanın bu addımı qətiyyən başadüşülən deyil.

Bu təşəbbüsün reallaşması üçün bizə 97 səs lazım idi. Biz isə 130-dan çox ölkənin səsini qazandıq. Hesab edirəm ki, burada iki əsas amil öz rolunu göstərdi - bu mövzunun aktuallığı və beynəlxalq müstəvidə Azərbaycana olan dəstək və rəğbət. Biz bu rəğbəti uzun illər ardıcıl fəaliyyət hesabına, prinsipial, müstəqil siyasətimiz sayəsində qazanmışıq...", - deyə cənab İlham Əliyev bildirib.

Azərbaycan Prezidenti müsahibəsində xüsusi vurğuladı ki, Ermənistanın özü regionda və bəlkə də dünyada pandemiyadan ən çox zərər çəkmiş ölkələrdən biridir: "İndi özləri etiraf edirlər ki, bu pandemiya ilə bacarmırlar. İndi özləri döymədikləri qapı qalmayıb ki, onlara yardım etsinlər. Yenə də dilənə-dilənə, yalvara-yalvara, oradan-buradan hansısa yardım hesabına yaşamağa çalışırlar..."

Ümumiyyətlə, Azərbaycan Prezidentinin üç televiziya kanalına müsahibəsi - ölkə ictimaiyyətini bir sıra məsələlərlə bağlı məlumatlandırması ümumi vəziyyətə aydınlıq gətirdi. Bu gün dünyanı əsarətinə alan koronavirus pandemiyasına qarşı mübarizədə birliyin nə dərəcədə vacibliyi müsahibədə daha çox diqqətçəkən məqamlardan oldu. Ona görə də dövlət başçısının bildirdiyi kimi, "Biz birlikdə güclüyük!"

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***

# REGİONLAR





Torpağı və xalqı təkcə silahla müdafiə etmirlər. Onun maddi və mənəvi dəyərlərini araşdırmaq, tədqiq etmək və gələcək nəsillərə çatdırmaq da vətəni qorumaqdır. Naxçıvan MR-də meyvə və üzüm genofondunun qorunması, seleksiya yolu ilə zənginləşdirilməsi, gələcək nəsillərə ötürülməsi və iqtisadi əhəmiyyətli sortların istehsalata yönəldilməsi məhz bu məqsədə xidmət edir.

## Naxçıvanın 24 aborigen üzüm sortu ABŞ-ın Kaliforniya ştatında əkilmişdir

### Bu, muxtar respublika aqrar alimlərinin nailiyyətidir

AMEA-nın Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun "Meyvə, tərəvəz və üzümçülük" laboratoriyasında regionun əsas maddi sərvətlərindən olan meyvə və üzüm genofondunun tədqiq olunması, qorunması, seleksiya yolu ilə zənginləşdirilməsi, aqrotexnikasının öyrənilməsi, iqtisadi əhəmiyyətli sortların istehsalata yönəldilməsi istiqamətində məqsədyönlü elmi araşdırmalar aparılır. Hələ 2003-cü ildən başlayaraq laboratoriyada "Naxçıvan Muxtar Respublikasının bioresurslarının öyrənilməsi, tədqiqi, səmərəli istifadəsi və mühafizəsinin bioloji əsasları" mövzusu üzrə elmi araşdırmalara başlanılmışdır. 2016-2020-ci illər elmi-tədqiqat dövrü üçün planlaşdırılmış "Naxçıvan Muxtar Respublika ərazisində yayılmış yabanı və mədəni meyvə-giləmeyvə, tərəvəz bitkilərinin genofondunun toplanılması, tədqiqi və səmərəli istifadəsi" və "Genetik üsulların təkmilləşdirilməsi əsasında eksperimental yolla alınmış yeni üzüm sort və formaların ampeloqrafiq xüsusiyyətlərinin tədqiqi və seçmə işləri" adlı iki mövzu üzrə elmi-tədqiqat işləri günü bugünəcən davam edir.

"Meyvə, tərəvəz və üzümçülük" laboratoriyasının rəhbəri, aqrar elmləri doktoru, dosent Varis Quliyev deyir ki, 17 ildir muxtar respublika ərazisində yayılan müxtəlif yabanı, həmçinin mədəni meyvə növ və sortların genofondunun tədqiqi, müxtəlifliyinin tərkibi, genetik xüsusiyyətlərinin araşdırılması, toplanması, iqtisadi səmərəli olanların seçilməsi, təsərrüfat əhəmiyyətli sortlarının yaradılması, istehsalata yönəldilməsi və istifadəsi istiqamətində çoxsaylı elmi-tədqiqat işləri aparırlar. Bu dövr ərzində əldə olunan mühüm nəticələr Azərbaycan, eləcə də ABŞ, Almaniya, Bolqarıstan, İsveçrə, Gürcüstan, Orta Asiya ölkələri və Rusiya Federasiyasının nüfuzlu elmi jurnallarında nəşr olunub.

V.Quliyev onu da bildirdi ki, Naxçıvan Muxtar Respublikası ərazisində aparılan tədqiqatlar nəticəsində yabanı meyvə və giləmeyvə bitkilərindən alma, armud, quşarmudu, yemişan, alça, gavalı, itburnu, zirinc, böyürtkən, qarağat, çaytikanı, itüzümü cinslərinə daxil olan növlərin sistematik tərkibi və yayılma zonaları öyrənilmiş, təbii ehtiyatı və səmərəli istifadə yolları araşdırılmışdır: "Müəyyən olunmuşdur ki, hazırda muxtar respublika florasında almanın bir növ iki variasiya, 21 formasına, armudun 17 növ 3 variasiyasına, zirincin 6 növ və 2 formasına, quşarmudunun 17, yemişanın 17, çaytikanının 1, böyürtkənin 3, itüzümünün 3, qarağatın 2, itburnunun 30, alçanın 4, gavalının isə 6 növünə yabanı halda rast gəlinir. Aparılan çoxillik tədqiqatlar nəticəsində ilk dəfə olaraq Azərbaycan və Naxçıvan Muxtar Respublikası floraları üçün yeni olan 6 fəslə 9 cinsə aid 29 növ, 5 variasiya və 2 forma müəyyən edilmişdir. Tədqiqatlar nəticəsində növlərin təbii ehtiyatı hesablanmış və istifadə imkanları müəyyənləşdirilmişdir".

Müasir dövrdə muxtar respublikada meyvəçilik və üzümçülük aqrar sektorun prioritet sahələrindəndir və bu istiqamətdə mühüm dövlət tədbirləri həyata keçirilir. Belə ki, Naxçıvan MR Ali Məclisi Sədrinin 2012-ci il fevralın 14-də imzaladığı sərəncamla təsdiq edilmiş "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" və 2016-cı il 8 fevral tarixli sərəncamı ilə təsdiqlənmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" regionda meyvəçiliyin genişləndirilməsinə, əhalinin yerli meyvə məhsulları ilə etibarlı təminatının yaxşılaşdırılmasına mühüm töhfələr vermişdir. Qəbul edilən dövlət proqramlarına uyğun olaraq, laboratoriyada meyvə genofondunun tədqiqi, sort tərkibinin müəyyənləşdirilməsi, tətbiqyönümlü sortların öyrənilməsi, seçilməsi və iqtisadi qiymətləndirilməsi məqsədilə araşdırma aparılmışdır.

Varis Quliyev qeyd etdi ki, tədqiqat dövrü muxtar respublikada tumlu, çəyirdəkli və qoz meyvələrin genofondu tədqiq olunmuş, tətbiqyönümlü sortlar aşkarlanmış, hər bir ərazidə neçə sort və formaların yayıldığı müəyyən edilmiş, onlar üzərində qiymətləndirmələr aparılmışdır. Aparılan elmi-tədqiqat işləri nəticəsində müəyyən edilmişdir ki, ərazidə tumlu meyvələrdən alma, armud, heyva, əncir, əzgil, nar, tut, yemişan, çəyirdəkli meyvələrdən albalı, gilas, şaftalı, ərik, alça, zoğal, qoz meyvələrdən isə qoz, badam, fındıq, püstə və başqa növlər geniş yayılmışdır. Ekspedisiyalar nəticəsində məlum olmuşdur ki, ərazidə müvafiq növlər üzrə tumlu meyvələrdən almanın 116, armudun 51, heyvanın 10, əzgilin 1, tutun 5, əncirin 4, narın 6, yemişanın 18 sortu, çəyirdəkli meyvələrdən gilasın 14, gilənarın 7, gavalının 14, zoğalın 1, alçanın 21, göyəmin 2, əriyin 31, şaftalının 14 sortu mövcuddur. Ərazidə, həmçinin qozun 26, püstənin 2, badamın 8, limonun 4 sortunun yayıldığı aşkarlanmışdır. Bu zəngin genofonddan səmərəli istifadə edilərsə, muxtar respublika əhalisini sitrus meyvə sortları istisna olmaqla, yerli məhsullar hesabına tumlu və çəyirdəkli meyvə belə təmin etmək mümkündür.

Son dövrlər Azərbaycanda, o cümlədən Naxçıvan Muxtar Respublikasında üzümçülüyün genişləndirilməsinə diqqət artmaqdadır. Prezident İlham Əliyevin "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında 15 dekabr 2011-ci il tarixli sərəncamında üzümçülüyün müasir vəziyyəti, inkişafının məqsəd və vəzifələri, əsas istiqamətləri, maliyyə mənbələri və gözlənilən nəticələr müəyyənləşdirilmişdir. Muxtar respublikada da üzümçülüyün və ona uyğun istehsal sahələrinin yenidən inkişaf etdirilməsi, yox olmaq təhlükəsi ilə üzləşən üzüm genotiplərinin qorunması, perspektivli sortların fermer və özəl təsərrüfatlarda geniş becərilməsinə nail olunması günün aktual problemlərindəndir.

Laboratotiyada üzümçülüyün genofondunun öyrənilməsi, sort müxtəlifliyinin, perspektivli genotiplərin müəyyənləşdirilməsi, ampeloqrafik və genetik xüsusiyyətlərinin araşdırılması, iqtisadi qiymətləndirilmələrin aparılması, yeni sortların introduksiyası, kompleks davamlı və şaxtaya dözümlü sortların əldə olunması istiqamətində müxtəlif seleksiya üsulları ilə məqsədyönlü elmi-tədqiqat işləri aparılır. Artıq regionda üzümçülüyün qədim tarixə malik olmasını sübut edən yabanı üzüm növü öyrənilmiş, 6 variasiya müxtəlifliyi müəyyənləşdirilmiş, ilk dəfə olaraq yeni variasiya aşkar edilmişdir. Həmçinin becərilən üzüm sortlarının genofondu tədqiq edilmiş sort və forma müxtəlifliyi araşdırılmış və qiymətləndirilmişdir. Tədqiqat dövrü davamlı olaraq muxtar respublikada üzüm genofondunda müxtəlif genetik irsi əlamətlərə malik olan genotiplərin və müsbət irsi əlamətli donorların müəyyənləşdirilməsi, üzümçülükdə kəmiyyət və keyfiyyət dəyişikliklərinin qanunauyğunluqlarının tədqiqi, iqtisadi səmərəliyin hesablanması, seleksiya işlərinin aparılması yolu ilə yeni sort və formaların yaradılması, onların istehsalata yönəldilməsi istiqamətində məqsədyönlü tədqiqat işləri aparılmış və mühüm elmi-praktiki əhəmiyyət kəsb edən elmi nəticələr əldə olunmuşdur. Tədqiqat dövrü ilk dəfə olaraq "Üzümdə çiçəkləmə dövrü, qametogenez mərhələdə genom mutasiyasının alınması metodikası" işlənib hazırlanmışdır. Eyni zamanda "Naxçıvan Muxtar Respublikasında aborigen üzüm sortlarının rəqəmsal ampeloqrafik təyini" üsulu hazırlanmış, 92 sortun rəqəmsal təyinatı aparılmışdır. Müxtəlif genetik üsullarla-klassik hibridləşdirmə yolu ilə 200-dən çox hibrid təbiətli üzüm formaları seçilmiş, eksperimental poliploidiya və klon seleksiyası yolu ilə məqsədyönlü seleksiya işləri aparılmış, təsərrüfat əhəmiyyətli, stres amillərə davamlı, yüksək məhsuldarlığa və şəkərliliyə malik olan 50-dən çox perspektivli formalar əldə olunmuşdur. Bunlardan əlavə, genofonda daxil olan 120-dən çox üzüm sortunun biomorfoloji, aqrotexnoloji xüsusiyyətləri və xəstəliklərə qarşı davamlılığı tədqiq edilmiş, beynəlxalq miqyasda qəbul olunmuş qayda üzrə ampelo-deskriptor xüsusiyyətləri araşdırılmış, rəqəmsal ampeloqrafiya əsasında irsi əlamətləri kodlaşdırılmış və şifrələnmişdir. İntroduksiya olunmuş 23 sortun adaptasiya olunma, əsas biomorfoloji və aqrobioloji xüsusiyyətləri araşdırılmış, muxtar respublika ərazisində üzümlüklərdə becərilməsi üçün 5 süfrə, 4 texniki istiqamətli daha perspektivli sortlar seçilmişdir.

Onu da qeyd edək ki, Naxçıvan Muxtar Respublikasının 28 üzüm sortu Azərbaycan Dövlət Aqrar Universitetinin, 42 sortu Azərbaycan Elmi-Tədqiqat Üzümçülük və Şərabçılıq İnstitutunun təcrübə sahələrində, 24 aborigen üzüm sortu isə ABŞ-a aparılaraq Kaliforniya ştatında üzümlüklərdə əkilmişdir. Seleksiya yolu ilə alınan 7 yeni üzüm forma-sortu istehsalata tətbiq üçün Seleksiya Nailiyyətlərinin Mühafizəsi Üzrə Dövlət Sort Sınaq Komissiyasının xətti ilə Naxçıvan Kənd Təsərrüfatı Nazirliyinin "Araz" Elmi İstehsalat Birliyinin təcrübə sahəsində əkilərək yoxlamadan keçirilməklə sınaq müddəti başa çatmışdır.

Tədqiqat dövründə əməkdaşlar nüfuzlu elmi konfrans və simpoziumlarda fəal iştirak etmişlər. Əməkdaşların 345 elmi əsəri, 16 monoqrafiyası nəşr olunmuşdur.

***Türkanə BƏYLƏRLİ,***
***AMEA Naxçıvan Bölməsinin əməkdaşı***

## Lənkəranda yol infrastrukturunun yenidən qurulması davam edir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə regionların sosial-iqisadi inkişafı dövlət proqramları tərtib olunarkən yol infrastrukturunun inkişafına geniş yer verilib.





Ötən dövr ərzində ölkəmizin hər yerində olduğu kimi, Lənkəran rayonunda da bu sahədə irimiqyaslı layihələr gerçəkləşdirilərək ümumi uzunluğu 200 kilometrədək olan şəhərdaxili küçələr, magistral və kəndlərarası yollar başdan-başa yenidən asfaltlanıb. Təkcə son illərdə rayonda 7 iri yol layihəsi həyata keçirilib. Koronavirus pandemiyasının yaratdığı labüd çətinliklərə baxmayaraq, cari ilin birinci yarısında Lənkəran və Liman şəhərlərində 8 küçə asfaltlanandan sonra rayonun ən böyük yaşayış məntəqələrindən olan Haftoni qəsəbəsini Ləj kəndi ilə birləşdirən, yararsız vəziyyətə düşdüyündən sakinlərin narahatçılığına səbəb olan yol ağır texnikalar vasitəsilə hamarlanıb, bünövrəsi çınqılla möhkəmləndirilərək yenidən qurulub. Burada 3 min 200 kvadratmetr yol sahəsinə isti asfalt döşənib, yol çiyinləri yenidən qurulub, suötürücü qurğular quraşdırılıb və yol boyu abadlıq işləri görülüb. Qəsəbədə yol infrastrukturunun yenidən qurulması rayonda turizmin inkişafı baxımından da çox əhəmiyyətlidir. Belə ki, qəsəbənin Ələt-Astara-İran İslam Respublikası magistral avtomobil yoluna bitişik ərazidə yerləşməsi və burada yeni istifadəyə verilmiş beynəlxalq əhəmiyyətli İstisu Müalicə və İstirahət Mərkəzinin fəaliyyət göstərməsi turizmin inkişafı üçün çox əhəmiyyətlidir və qəsəbəətrafı yolların asfaltlanması bu imkanları daha da genişləndirəcəkdir.

***"Azərbaycan"***

## Astaranın çay plantasiyalarında ikinci yığım iyulun sonlarında başa çatacaq

Astara rayonunun çay plantasiyalarında ikinci çay yığımı kampaniyası davam edir.



AZƏRTAC xəbər verir ki, bu il havaların yağmurlu keçməsi məhsuldarlığa da müsbət təsirini göstərib. Çay plantasiyalarında bol məhsul var.

İndiyədək rayonda fəaliyyət göstərən çay fabriklərinə 307,6 ton yaşıl çay yarpağı təhvil verilib. Astarada ikinci çay yığımı iyulun sonlarında başa çatacaq.

Qeyd edək ki, ötən il Astara rayonunda 137 hektar məhsuldar çay sahəsindən 583,3 ton yaşıl çay yarpağı yığılıb. Bu il bu rəqəmin 600 tona çatdırılması nəzərdə tutulub.

## Balakəndə 138 hektardan çox sahədə dən üçün təkrar qarğıdalı əkilib



Taxıl biçini başa çatdıqdan sonra Balakən rayonunun təsərrüfatlarında 140 hektar sahədə təkrar qarğıdalı əkininin aparılması nəzərdə tutulur. Bu istiqamətdə işlər artıq yekunlaşmaq üzrədir. İndiyədək rayon ərazisində 138,3 hektar sahədə dən üçün təkrar qarğıdalı əkilib.

Bu barədə AZƏRTAC-a Balakən Dövlət Aqrar İnkişaf Mərkəzinin direktor müavini Elvin Səmədov məlumat verib.

Qeyd edək ki, bu il təkrar qarğıdalı əkininə görə fermerlərə toxum almaq üçün dövlət tərəfindən hər hektara 60 manat birdəfəlik vəsait ödəniləcək.

Qurum rəsmisi bildirib ki, qarğıdalı istehsalı rayonun kənd təsərrüfatında aparıcı yerlərdən birini tutur. Bunun nəticəsidir ki, son illər balakənli fermerlərdə bu sahəyə maraq xeyli artıb. Hazırda Balakən rayonu qarğıdalı bitkisinin əkin sahəsinə və istehsal olunan məhsulun həcminə görə respublikada birincilər sırasındadır. Mövcud təbii iqlim şəraiti rayonun qarğıdalıçılıq üzrə ixtisaslaşmasına, bu sahənin daha da inkişaf etdirilməsinə imkan verir. Cari ildə rayonda dən üçün qarğıdalının əkin sahəsi əvvəlki illə müqayisədə 302 hektar artırılaraq 7 min 515 hektara çatdırılıb.

### Fermerlərə tövsiyə

## Qoyunlar yaylaq, otlaq və otlaq-pəyə şəraitində necə saxlanılmalıdır

Digər heyvanlara nisbətən qoyunlar yaylaqlarda olan otlaqlardan daha səmərəli istifadə edir. Ölkəmizin, xüsusən cənub və aran rayonlarında qoyunlar bütün ili otlaq (yaylaq və qışlaq) şəraitində saxlanılır. Qoyunlar otlaq şəraitində ucuz və qiymətli yem ala bilirlər. Yaxşı otlaq şəraitində qoyunların məhsuldarlığı və çoxalma qabiliyyəti artır, onlar xəstəliklərə davamlı olurlar.

Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən AZƏRTAC-a bildirilib ki, qoyunlar üçün quru, tozu olmayan, müxtəlif alçaqboylu bitkiləri olan sahələr, çəmənlik, meşədüzənlik və düzənlik otlaqlar ayrılmalıdır. Qoyunlar dağ və yaylaq otlaqlarından daha yaxşı istifadə edir. Pis otlaqlarda qoyunlar doyunca yem ala bilmir, əlavə yemə ehtiyac artır, qoyunların məhsuldarlığı isə aşağı düşür. Qoyunlar üçün rütubətli, dəniz səviyyəsindən aşağı bataqlıq olan otlaqlar əlverişli sayılmır. Belə otlaqlarda qoyunlar arasında invazion və dırnaq xəstəlikləri daha çox müşahidə edilir. Eləcə də qoyunlar üçün kollu, tikanlı və qaba bitkilər, habelə tikanlı toxumu olan yapışqanlı (qatıqotu, aqot və s.) otlaq sahələri əlverişli hesab edilmir. Belə otlaqlar qoyunun yununu çirkləndirir, habelə müxtəlif xəstəliklərin əmələ gəlməsinə səbəb olur. Fermerlər təbii otlaqların yaxşılaşdırılması haqqında müvafiq tədbirlər həyata keçirməlidirlər. Bunun üçün otlaq sahələrini suvarmaq, zəhərli bitkilərdən təmizləmək, bataqlıqları qurutmaq, kiçik çeyillikləri və gölməçələri hasarlamaq, habelə otlaqda məhsuldarlığı artırmaq üçün tədbirlər görməlidirlər.

Yaylaq və otlaq şəraitində qoyunları su ilə təmin etmək üçün su mənbələri qaydaya salınmalı və suvarma məntəqələri düzəldilməlidir. Suvarma məntəqəsi ilə otlaqlar arasında 2-3 km-dən artıq məsafə olmamalıdır. Qoyunların suvarılması üçün səyyar su təknəsindən istifadə edilməlidir.



Otlaq şəraitində su təchizatı və suvarmaya qoyulan gigiyenik qaydalar gözlənilməlidir. Qoyunların gecələməsi və gündüzlər istirahət etməsi üçün otlaqlarda yataqlar düzəldilir. Bu yataqlar hərəkətedici arakəsmələrlə (tirlər) kiçik hissələrə bölünür. Burada xəstə qoyunlar seçilib ayrı bölmədə saxlanır. Yataqlar və ya bazalar köçürülə bilən yüngül yem və su qabları ilə, habelə bəzi avadanlıqlarla (bel, vedrə, zibil yeşiyi, arakəsmələr) təmin edilməlidir. Yataqlarda və ya duzlaqlarda qoyunlar üçün daş duz qoyulmalıdır. Eləcə də heyvanların yataq yerləri hər gün mexaniki təmizlənərək, heç olmasa, iki həftədən bir həmin yerlər dezinfeksiya edilməli və baytarlıq-sanitariya qaydalarına ciddi əməl olunmalıdır.

Otlaq şəraitində qoyun sürüsü aşağıdakı sayda təşkil edilir: 1) quzulu qoyunlar 700-1500 baş; 2) süddən ayrılmış quzular 1000-1500 baş; 3) kökəldilən quzular 2000 başa qədər olmalıdır.

Xatırladaq ki, qoyunlar otlaq şəraitinə tədricən keçirilməli və müəyyən hazırlıq işləri görülməlidir.

Qoyunların otarılmasında küzlə otarma sistemi tətbiq edilməlidir. Otlaq şəraitində görüləsi işlər işçilər arasında bölünməli və bu işlərin vaxtında yerinə yetirilməsinə ciddi nəzarət edilməlidir. Otlaqda yem çatışmadıqda qoyunların otlaq-pəyə və ya otlaq-düşərgə şəraitində saxlanma sistemi təşkil edilir. Belə şəraitdə qoyunlara biçilmiş göy ot, qarğıdalı silosu, şəkər çuğunduru verilir. Ot və taxıl biçildikdən sonra həmin yerdə qoyunlar otarılır. Qoyunları fasiləsiz olaraq yaşıl yem kütləsi ilə təmin etmək üçün yaşıl konveyer sistemi də tətbiq edilir. Quzulu qoyunlar şirəli bitkilərlə zəngin olan otlaqlarda otarılır. Belə otlaqlarda qoyunların südü artır. Bu da quzuların südlə yaxşı təmin edilməsinə səbəb olur. Qoyunlar geniş sahələrdə bərabər otarılmalıdır. Bunun üçün çobanın biri sürünün qabağında, digəri isə arxada durmalıdır. Bu qayda ilə otarmada qoyunların çox irəli qaçmasına və geri qalmasına yol verilmir. Qoyunlarda köpmə xəstəliyinin qarşısını almaq üçün (yazda və payızda) onlar səhər tezdən ot üzərindən şeh çəkildikdən sonra otlağa aparılmalıdır, çünki qoyunlar şehli ot yedikdə onlarda köpmə əmələ gəlir. İsti havalarda qoyunları səhər tezdən otlağa aparmaq lazımdır. Qoyunları istivurmadan və hipertermiyadan qorumaq üçün yayın isti və bürkülü günlərində otlağa aparılmamalıdır. Belə vaxtlarda qoyunlar kölgəli, mehəsən, küləktutan, ağac və qaya kölgəsi olan yerlərdə saxlanmalıdır. Heyvanlar yay dövründə həm yaylaq, həm də otlaq-pəyə şəraitində saat 11-17 arasında kölgəli sahələrdə saxlanılmalı və təmiz bol su ilə təmin edilməlidir.

Ölkəmizin aran rayonlarında (isti günlərdə) qoyunların gecə otarılması təşkil edilməlidir. İsti yay günlərində (səhərlər) qoyunlar otlaq sahələrinə külək əsən istiqamətdə aparılmalıdır, çünki belə halda konvensiya yolu ilə istilikburaxma artır. İsti havalarda qoyunların topa halında yığılmasına yol verilməməlidir, çünki onların yan-yana sıx durması istivurmaya səbəb olur. Yayda günəş şüalarının qoyunun gözünə və başına düşməsinin qarşısını almaq üçün otarılma elə təşkil edilməlidir ki, günəşin şüaları onların üstünə arxadan, ya da yandan düşsün. Belə ki, çobanlar günəş şüalarının düşmə və küləyin əsmə istiqamətini müəyyən etməlidirlər. İsti havalarda qoyunlar sərin yerlərdə dincəlməli, sonra isə suvarılmalıdır. Belə halda qoyunlar həvəslə otlayırlar. Eləcə də qoyunlar vaxtaşırı baytarlıq müayinəsindən keçirilməlidir.

# OXUCULARIN NƏZƏRİNƏ
# “AZƏRBAYCAN”

*qəzetinə 2020-ci ilin ikinci yarısı üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *“Azərmətbuatyayımı” ASC* | *(012) 440-46-94, (070) 244-17-34* |
| *“Azərpoçt” ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *“Qaya” firması* | *(012) 564-63-45, (050) 214-04-05* |
| *“Kaspi” MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *“Region Press” MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *“Səma-M” MMC* | *(012) 594-09-59* |
| *“Ziya” LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *“Pressinform” MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *“City press” MMC* | *(055) 819-09-26* |

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*1 aylıq*
10,40 (on manat qırx qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


# “Azercell” “e-Təbib” mobil tətbiqini yükləyən hər kəsə 100 MB hədiyyə təqdim edir




**“Azercell” insanların koronavirusa yoluxma riskinin azaldılması məqsədi daşıyan “e-Təbib” mobil tətbiqini yükləyən abunəçilərinə hədiyyə qazandırır. Belə ki, “e-Təbib” mobil tətbiqini yükləyib qeydiyyatdan keçən bütün “Azercell” abunəçilərinə 100 MB internet hədiyyə olunur.**

100 MB internet 24 saat ərzində avtomatik qaydada abunəçinin balansına əlavə edilir. Paketdən istifadə müddəti 30 gündür və yalnız bir dəfə təqdim olunur. İnternet hədiyyəsi istisnasız olaraq bütün fakturalı və fakturasız xətt “Azercell” abunəçiləri üçün nəzərdə tutulub.

Qeyd edək ki, “e-Təbib” tez-tez verilən suallara cavabları və profilaktik tədbirlər haqqında məlumatları təqdim edən, ictimai yerlərdə olarkən ətrafdakı insanların potensial virus daşıyıcısı olub-olmaması barədə xəbərdarlıq edən tətbiqdir. Həmçinin təsadüfən infeksiya daşıyıcısı ilə təmas olduğu halda istifadəçiyə bildiriş göndərilir. Qeydiyyat üçün “e-Təbib” tətbiqini yükləyib daxil olduqdan sonra tətbiqin “Digər” bölümündə yerləşən “Şəxsi kabinetə” keçərək şəxsiyyət vəsiqəsinin FIN kodunu və digər tələb olunan əlavə məlumatları daxil etmək lazımdır. Daha ətraflı bilgi üçün **https://www.azercell.com/az/-personal/services/partner_services/e_tabib/** ünvanına müraciət etmək mümkündur.

Bu, “Azercell Telekom” MMC-nin COVID-19 pandemiyası ilə mübarizədə ilk dəstək layihəsi deyil. Şirkət infeksiyanın yayıldığı gündən etibarən korporativ sosial məsuliyyət strategiyası çərçivəsində bir çox sosial layihə və xeyriyyə aksiyaları gerçəkləşdirib.

# Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi
## *açıq tenderə dəvət edir*

DOST Agentliyi üçün videoçarxların hazırlanması və infoqrafika işlərinin satın alınması

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqavilənі yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: LOT üzrə 100 (bir yüz) manat**

**Satınalan təşkilat: Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi**
**VÖEN: 1305817761**
**Bank: Azərbaycan Beynəlxalq Bankı ASC Yasamal filialı**
**Kod: 805562**
**Müxbir Hesabı: AZ03NABZ01350100000000002944**
**VÖEN: 9900001881**
**SWIFT IBAZAZ2X**
**H/hesabı: AZ59IBAZ38090019446221732216**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri - notarial qaydada təsdiq olunmuş;
- tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış - 10.07.2020-ci il tarixdən sonrakı tarixdə alınmış vergi arayışları qəbul ediləcəkdir;
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti - 2019-cu il üzrə maliyyə hesabatının surəti tələb olunur;
- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı - 10.07.2020-ci il tarixdən sonrakı tarixdə alınmış bank arayışı qəbul ediləcəkdir;
- iddiaçının ixtisaslı işçi heyəti barədə məlumatlar (CV-lər əlavə olunmaqla);
- bənzər işlərdə təcrübəsi barədə müqavilələr və görülmüş işlər barədə təsdiqedici sənədlər təqdim olunmalıdır;
- tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **04.08.2020-ci il saat 16:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **12.08.2020-ci il 16:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **13.08.2020-ci il saat 16:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

# İlahiyyat İnstitutunun İctimai Nəzarət Şurasının onlayn iclası keçirilib




Azərbaycan İlahiyyat İnstitutunun (AİI) rəhbərliyi yanında İctimai Nəzarət Şurasının onlayn iclası keçirilib. “ZOOM” proqramı vasitəsilə keçirilən iclasda bütün şura üzvləri iştirak ediblər. Onlayn iclasda çıxış edən AİI-nin rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Aqil Şirinov bildirib ki, Azərbaycan Respublikası ərazisində koronavirus (COVID-19) xəstəliyinin yayılmasının qarşısının alınması məqsədilə ölkə ərazisində yerləşən bütün təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesi təxirə salınıb. O, qeyd edib ki, AİI-də cari tədris prosesi ilkin olaraq videodərslər formasında, daha sonra isə Təhsil Nazirliyinin tövsiyəsinə uyğun olaraq onlayn şəkildə “Microsoft Teams” platforması üzərindən keçirilib. Rektor “Microsoft Teams” platformasının üstünlüklərindən danışaraq qeyd edib ki, məsafədən dərslərə qoşula bilməyən tələbələrin daha sonra proqramdan istifadə etmək imkanları olub.

AİI rəhbəri daha sonra imtahanların keçirilmə qaydası ilə bağlı Elmi Şuranın qərarlarını açıqlayaraq, yay imtahan sessiyası ərzində tələbələrin imtahanlarda iştirak, müvəffəqiyyət və keyfiyyət göstəricilərini diqqətə çatdırıb.

Yay mövsümünün pandemiya və xüsusi karantin dövrünə təsadüf etdiyini nəzərə çatdıran rektor tələbələr üçün bu müddətdə motivasiya xarakterli təlimlərin, yarış və müsabiqələrin, həmçinin onlayn kursların təşkilinin nəzərdə tutulduğunu vurğulayıb.

Nəzarət Şurasının üzvü - təhsil üzrə ekspert, professor Şahlar Əsgərov AİI-ni çoxəsrlik İslam mədəniyyətinin ənənələrini davam etdirən elm ocağı adlandıraraq, təhsil, təlim-tərbiyə prosesinə dair öz dəyərli tövsiyələrini verib.

Məlumat üçün bildirək ki, İctimai Nəzarət Şurasının əsas məqsədi AİI-nin fəaliyyətinə ictimai nəzarətin həyata keçirilməsi, institut ilə ictimaiyyət arasında səmərəli qarşılıqlı əlaqələrin təşkili, aşkarlığın və şəffaflığın təmin olunması, əməkdaşların və təhsil alanların hüquqlarının müdafiəsi və fəaliyyətinin təkmilləşdirilməsi üçün təkliflərin verilməsindən ibarətdir.

# AİI-də yay imtahan sessiyası sona çatıb

Azərbaycan İlahiyyat İnstitutunda (AİI) 2019-2020-ci tədris ilinin bakalavriat və magistratura səviyyələri üzrə yaz semestrinin yay imtahan sessiyası sona çatıb. Beş həftə davam edən sessiya təsdiq edilmiş imtahan cədvəlinə uyğun olaraq, “Microsoft Teams” platforması üzərindən onlayn formatda şifahi formada keçirilib.

Xüsusi karantin rejiminin tələblərini və məsafədən tədrisin reallıqlarını nəzərə alaraq, imtahan sessiyasında tələbələrin bilik və bacarıqlarını göstərmələri üçün lazımi şərait yaradılıb.

Azərbaycan Respublikası ərazisində koronavirus (COVID-19) pandemiyasının yayılmasının qarşısının alınması məqsədilə ölkə ərazisində yerləşən bütün təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesinin təxirə salındığını nəzərə alaraq, AİI-də cari tədris prosesi ilkin olaraq videodərslər formasında, daha sonra isə Təhsil Nazirliyinin tövsiyəsinə uyğun olaraq onlayn şəkildə “Microsoft Teams” platforması üzərindən keçirilib.

Tələbələrin imtahanlarda daha fəal iştirak etmələri üçün Elmi Şuranın qərarına əsasən bir sıra güzəştlər tətbiq olunub. Belə ki, cari ilin yaz semestri üzrə təhsil alanların biliyinin qiymətləndirilməsi zamanı onlayn dərslərdə iştirak edən tələbə və magistrantların dərslərdəki fəallığı nəzərə alınaraq, əldə etdikləri nəticələr əsas götürülüb. Onlayn dərslərdə iştirak etməyən tələbələrin yaz semestri üzrə qiymətləndirilməsi onların yay imtahan sessiyasında topladıqları balların 2-yə vurulması ilə həyata keçirilib. İmtahan sessiyasının mövcud qaydalara uyğun təşkil edilməsi, sualların tərtibi, tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflığın və obyektivliyin tam təmin olunması, sessiyanın gedişi zamanı imtahanların nəticəsindən yarana biləcək narazılıqların araşdırılması və həll edilməsi məqsədilə ali təhsil müəssisəsində Qərargah və onun nəzdində Apelyasiya Komissiyası yaradılıb.

İmtahan sessiyasının gedişatı dekanlıq, tədris şöbəsi və aidiyyəti kafedralar tərəfindən “Microsoft Teams” platforması üzərindən izlənilib.

Tələbələrin imtahanlarda müvəffəqiyyət göstəricisi 95, keyfiyyət göstəriciləri isə 40 faizdən yüksək olub.

İmtahan sessiyası müddətində əldə etdikləri nəticələrə (ÜOMG-yə) əsasən təhsil alanlara tələbə təqaüdü ilə yanaşı, AİI-də təsis olunmuş Heydər Əliyev adına təqaüd və Şeyxülislam adına təqaüd veriləcək.

***“Azərbaycan”***

# B İ L D İ R İ Ş

“Azərbaycan” qəzetinin 01 iyun və 25 iyun 2020-ci il tarixli saylarında “Azərsu” ASC-nin daxili vəsaiti hesabına nasosların təmiri islərinin satın alınması məqsədilə dərc edilmiş tenderdə iddiaçıların rəsmi müraciətlərinə əsasən, tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı 23 iyul 2020-ci il saat 18:00-a, təkliflərin açılışı isə 24 iyul 2020-ci il saat 18:00-a dəyişdirilmişdir.

Əlaqələndirici şəxs - Təchizat və Satınalmaların İdarəolunması Departamentinin Satınalmaların təşkili şöbəsinin mühəndisi Ağaəli Mirzəyev (agali.mirzeyev@azersu.az +99412 431-47-67 (2246)).

***Tender komissiyası***

# B İ L D İ R İ Ş

“Azərişıq” ASC tərəfindən 28 aprel 2020-ci il tarixdə “1 fazalı elektron sayğacların və Smart abonent kartlarının” satın alınması məqsədilə keçirilmiş açıq tender üzrə təqdim olunmuş iddiaçıların təklifləri Tender komissiyası tərəfindən qiymətləndirilmişdir. Tender komissiyasının qərarına əsasən, müvafiq LOT üzrə **“Meqaplus” firması** qalib elan olunmuşdur.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

# Ermənistanda işsizlik sosial problemləri artırır

*Əvvəli 1-ci səh.*

“168.am” nəşrində dərc olunan məqalədə də qeyd olunur ki, Paşinyan tərəfindən açıqlanan bu rəqəmlərin bağlanan iş yerləri ilə heç bir əlaqəsi yoxdur: “Əslində, aprel ayında Ermənistanda 71 471 yox, 12 minə yaxın iş yeri bağlandı. Bu barədə Ermənistan Dövlət Gəlirlər Komitəsi sədrinin müavini Artur Manukyan bəyan edib. Qalanları bağlanmış yox, sadəcə ödənilməyən iş yeri yerləridir. 4 ayın məlumatlarına görə, təxminən 12 min əməkdaş işdən çıxarılıb, yəni iş yerlərinin sayı bu qədər azalıb. Ancaq bir az daha yüksək faiz maaş hesablanmayan, ancaq saxlanılan iş yerlərinin sayıdır. Başqa sözlə, iş yerləri saxlanılıb, lakin heç bir ödəniş edilməyib. Düşünürük ki, fövqəladə vəziyyət səbəbindən əmək haqqının işçinin işlədiyi qədər hesablanmasını nəzərdə tutan Əmək Məcəlləsində son dəyişikliyin də burada rolu var. Paşinyanın açıqladığı 71471 “bağlı” iş yerlərindən bəziləri əslində bağlanmayıb. Həmin işlər aprel ayında olub, amma insanlar maaş almayıblar.

Başqa sözlə, insanlar məcburi məzuniyyətdə olduqları üçün vergi orqanlarına ödənilmiş maaşlar barədə sıfır hesabatlar təqdim edilib. Bu, iş yerlərinin bağlanması demək deyil. Bağlı bir işlə heç bir əlaqəsi olmayan məcburi ödənişsiz məzuniyyətdir və hökumətin addımlarını əsaslandırmaq üçün insanları çaşdırmağa ehtiyac yoxdur. 60 minə yaxın belə iş yerlərindən söhbət gedir. Buna görə bir çox insan aprel ayında maaş almayıb, ancaq iş yerlərini də itirmiş hesab olunmur. İşləmədiyi dövr üçün əmək haqqının verilməməsi bu iş yerlərinin bağlandığı anlamına gəlmir. Bunlar məcburi dayandırılmış iş yerləridir”.

Qeyd olunur ki, Dövlət Gəlirlər Komitəsi sədrinin müavininin açıqladığı 12 minə yaxın iş yerinin bağlanması iddiası başqa bir məsələdir. Bu vəziyyətdə, həqiqətən, bağlı iş yerlərindən söhbət gedir. Apreldə təxminən 12 min insan iş yerini itirib. İndi baş nazir may ayının məlumatlarına əsasən, 50 min 94 iş yerinin bərpasından danışarkən açıq-aşkar həqiqətləri təhrif edir. Bunlar əsasən məhdudiyyətlər üzündən aprel ayında yararsız vəziyyətə düşən iş yerləridir. Baş nazirin açıqladığı rəqəmlərə görə, onlardan ən azı 9 mini may ayında ödənişsiz məzuniyyətdə olmağa davam edib, yaxud daha da pis olaraq, aprel ayında iş yerlərini itirən 12 min vətəndaşın sırasına qoşulub.

Məlum olur ki, iqtisadiyyatın yenidən açılmasından sonra və ya aprel-may aylarında Ermənistan əmək bazarı 21 mindən çox iş yerini itirib. Bunlardan təqribən 12000-ə yaxın aprel ayında bağlanıb, may ayında isə 9000-dək iş yeri açılmayıb. Bu, Paşinyanın söyləmək istəmədiyi həqiqətdir. Bunun əvəzinə, hökumət “taxtın süqutundan” sonra iqtisadiyyatın yenidən açılması barədə qərarın öz nəticəsini verdiyi barədə təsəvvür yaratmağa çalışır.

Məqalədə qeyd olunur ki, bu qərar iqtisadiyyat üçün doğru ola bilər, amma unutmamalıyıq ki, pandemiya bu gün Ermənistanda tüğyan edir, yüz minlərlə insanın ölümünə səbəb olur, on minlərlə insanın həyatı və sağlamlığı təhlükə altındadır: “İş yerləri haqqında danışarkən Paşinyan işsizlik nisbətlərinə toxunsa daha yaxşı olardı. Bu il Ermənistanda işsizlərin sayı xeyli artıb. On minlərlə vətəndaş iş üçün xaricə getmək imkanından məhrum olmuş və işsizlər sırasına qoşulmuşdu. Hökumət aylardır ki, bu insanları ölkə daxilindəki tikinti işlərinə uyğunlaşacaqları barədə boş vədlər verir, bunun problemi həll etməyəcəyini yaxşı bilir. Bunlar və pandemiya olmadan da Ermənistanda işsizlik səviyyəsi çox yüksək idi.

Rəsmi məlumatlara görə, ötən ilin sonunda Ermənistanda 202 mindən çox işsiz qeydə alınıb. Bu il, xüsusən yoluxma dövrü üçün məlumatlar hələ yayımlanmayıb. Ancaq vəziyyətin pisləşməsi istiqamətində işsizliyin kəskin artımının qeydə alınacağı birmənalıdır”.

Bütün bunlar bir daha Ermənistanda vəziyyətin fəlakət həddinə çatdığını göstərir.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

# Xarici İşlər Nazirliyində həbslər davam edir

Məlumat verildiyi kimi, Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin (XİN) vəzifəli şəxslərinin öz səlahiyyətlərindən qəsdən qulluq mənafeyinə zidd olaraq istifadə edib dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vuran çoxsaylı əməllərə yol vermələri ilə bağlı istintaq-əməliyyat tədbirləri həyata keçirilib.

AZƏRTAC DTX-nin saytına istinadla xəbər verir ki, aparılan cinayət işi üzrə davam edən araşdırmalar zamanı XİN-in Konsulluq idarəsinin rəisi Faiq Bağırov tərəfindən Konsulluq məsələləri və sənədlərin təsdiqi şöbəsinin üçüncü katibi İlqar Əliyev, Konsulluq hüquq şöbəsinin müdiri Nurupaşa Abdullayev və tabeçiliyində işləmiş digər şəxslər vasitəsilə viza proseduru üzrə çoxsaylı xarici ölkə vətəndaşlarının adlarına Azərbaycan Respublikasına dəvət edən tərəfin vəsatətlərinin qısa müddətdə təsdiqi, habelə Azərbaycan Respublikası və xarici ölkə vətəndaşlarının təqdim etdikləri rəsmi sənədlərə şəhadətnamənin (apostilin) verilməsi, sənədlərin konsul leqallaşdırılmasının, eləcə də onun prosedurlarının tezləşdirilməsinin təmin edilməsi müqabilində əvvəlcədən müəyyən etdiyi konkret məbləğlərdə pul vəsaitlərinin müntəzəm surətdə rüşvət olaraq alınmasına əsaslı şübhələr müəyyən olunub.

Cinayət işi üzrə Faiq Bağırov və digərləri qabaqcadan əlbir olan bir qrup şəxs halında təkrar rüşvət alma cinayət əməllərinə görə təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb edilərək, barələrində məhkəmənin qərarları ilə həbs qətimkan tədbiri seçilib.

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Qasım Əliyevə atası

**VƏLİ MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Kəramət Əliyev və Əli Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Qasım Əliyevə atası

**VƏLİ MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Gəncə şəhər Kəpəz Rayon Məhkəməsinin sədri Vəli Abdullayev və məhkəmənin kollektivi Naxçıvan MR Ali Məhkəməsinin sədri Qasım Əliyevə atası

**VƏLİ MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

**Qeydiyyat nömrəsi 1**

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 6339
Sifariş 1672
Qiyməti 40 qəpik